# AZƏRBAYCAN DİLİ 1

## METODİK VƏSAİT







2021 – AZƏRBAYCAN DİLİ 1 Metodik vəsait

LAYİHƏ

FARİZƏ NƏBİYEVA, AYGÜN QASIMOVA
HƏBİB KƏRİMOV, YEGANƏ MƏMMƏDƏLİYEVA
KÖNÜL DOXOLOVA, SÜLEYMAN KƏRİMOV

Xüsusi məktəblərin (intellekt məhdudiyyəti olan)
1-ci sinifləri üçün sadələşdirilmiş proqram əsasında hazırlanmış

# AZƏRBAYCAN DİLİ

fənni üzrə

## METODİK VƏSAİT

© Azərbaycan Respublikası Təhsil Nazirliyi

CC BY NC SA

**Creative Commons Attribution-NonCommercial-ShareAlike 4.0 International (CC BY-NC-SA 4.0)**

Bu nəşr Creative Commons Attribution-NonCommercial-ShareAlike 4.0 International lisenziyası (CC BY-NC-SA 4.0) ilə www.trims.edu.az saytında yerləşdirilmişdir. Bu nəşrdən istifadə edərkən lisenziyanın şərtləri qəbul edilmiş sayılır:

İstinad zamanı nəşrin müəllif(lər)inin adı göstərilməlidir.

Nəşrdən kommersiya məqsədilə istifadə qadağandır.

Törəmə nəşrlər orijinal nəşrin lisenziya şərtləri ilə yayılmalıdır.

Bu nəşrlə bağlı irad və təkliflərinizi
chashioglu@gmail.com və derslik@edu.gov.az
elektron ünvanlarına göndərməyiniz xahiş olunur.
Əməkdaşlığınız üçün əvvəlcədən təşəkkür edirik!

LAYİHƏ

# MÜNDƏRİCAT


1. Giriş....3
2. Təlim texnologiyaları....5
3. Təqvim-tematik planlaşdırma....13
4. I hissə.Əlifba təliminə hazırlıq....17
5. Mən məktəbə gedirəm....17
6. Məktəb ləvazimatları....18
7. Sinfimiz....19
8. Ailə üzvləri....20
9. Mənim ailəm....21
10. Mənim oyuncaqlarım....22
11. Mənim sevimli oyuncaqlarım....23
12. Meyvələr. (Tərəvəzlər)....24
13. Bağda ....25
14. Dirrikdə ....26
15. Turp nağılı ....27
16. Ev heyvanları (Vəhşi heyvanlar)....28
17. Quşlar....29
18. Bədən üzvləri....30
19. Duyğu orqanları....31
20. "Tıq-tıq xanım" nağılı....32
21. Peşələr....33
22. Yol hərəkəti qaydaları....34
23. Küçədə....35
24. Nəqliyyat vasitələri....36
25. Günün hissələri....37
26. "Tülkü və Leylək"....38
27. Mebel....39
28. Otaqda....40
29. Geyimlər....41
30. Vətənim....42
31. Mağazada....43
32. Mətbəx əşyaları....44
33. Elektrik avadanlıqları....45
34. Bitkilər....46
35. "Qoğal" nağılı....47
36. Canlı və cansız aləm....48
37. Təbiət....49
38. II hissə. "A" hərfi ....50
39. "N" hərfi....51
40. "Ə" hərfi....53-54
41. "T" hərfi....55-56
42. "L" hərfi....57-58
43. "M" hərfi....58-59
44. "İ" hərfi....60-61
45. "B" hərfi....62-63
46. "R" hərfi....64-65
47. "I" hərfi....66-67
48. "D" hərfi....68-69
49. "Y" hərfi....70-71
50. "O" hərfi....72-73
51. "S" hərfi....74-75
52. "U" hərfi....76-77

51."K" hərfi....78-79


LAYİHƏ

# Giriş

Yüngül və orta dərəcəli intelekt məhdudiyyəti olan şagirdlər üçün hazırlanmış dərslik komplekti 4 kitabdan - “Azərbaycan dili” (I hissə) (əlifbaya qədərki dövr), “Azərbaycan dili” (II hissə) (əlifba dövrü) və metodik vəsaitlərdən ibarətdir. Tədris ili üçün proqram materialı həftədə 5 saat (cəmi 170 saat) nəzərdə tutulmuşdur.

“Azərbaycan dili” dərsliyinin I hissəsində nitq bacarıqlarının formalaşmasına, diqqət və təfəkkürün, kiçik motorikanın inkişafına dair tapşırıqlar verilmişdir. Tapşırıqları anlamaları üçün şagirdlərə xüsusi işarələr (piktoqramlar) təqdim olunmuşdur.

Yüngül və orta dərəcəli intelekt məhdudiyyəti olan şagirdlər üçün hazırlanmış Azərbaycan dili I hissəsinin (əlifbaya qədərki dövr) tədris prosesində şagirdlərdə aşağıdakı bacarıqlar formalaşacaq:

- Nitq bacarıqları formalaşacaq.
- Uşaqlar sözləri düzgün tələffüz etməyə nail olacaqlar.
- Gördükləri şəkil və hadisə haqqında məlumat verəcəklər.
- Onlarda anlaşıqlı, qrammatik qaydalara uyğun cümlə qurmaq bacarığı formalaşacaq.
- Əllərin kiçik motor əzələləri fiziki cəhətdən yazıya hazırlanacaq.

Yüngül və orta dərəcəli intelekt məhdudiyyəti olan şagirdlər üçün hazırlanmış Azərbaycan dili dərsliyinin II hissəsinin (əlifba dövrü) tədris zamanı şagirdlər aşağıdakı bilik və bacarıqlara yönələcəklər:

- Səs və hərflə tanış olacaqlar.
- Səslə hərfin fərqini başa düşəcəklər.
- Düzgün oxu və yazı texnikası vərdişlərinə yiyələnəcəklər.
- Təklif olunan səsin iştirak etdiyi sözlərlə tanış olacaqlar.
- Səslərin növlərini öyrənəcək və onlar arasındakı fərqi başa düşəcəklər.
- Onların dinləmə və anlama bacarıqları inkişaf edəcəkdir.

LAYİHƏ

## Səslərlə tanışlıq

Səslərlə tanışlıq zamanı fonematik eşitmə qabiliyyəti inkişaf etdirilir. Müəllimin nitqinin aydın olması vacibdir. Hər bir səsə aid verilən şəkillərin adlarına və səsin yerinə diqqət yetirmək lazımdır. Keçəcəyiniz səs sözün hansı hissəsində yerləşirsə həmin hissənin tələffüzü zamanı uzadırsınız (“a” səsi üçün – naaaar) ki, şagird səsin yerini müəyyən edə bilsin. Səsləri tələffüz edərkən (şagirdlər) ağızın, dodaqların, dilin vəziyyəti nəzərə alınmalıdır. Samit səslərin tələffüzündə sonda səslənən “ı” səsinə diqqət yetirin ki, şagird tələffüz zamanı əvvəl səslənən səsi unudub, sonuncu səsdə qalmasın (məs: “bıı”).

## Hərf anlayışı ilə tanışlıq və oxu

Şagirdlərdə hərf anlayışının ilkin rüşeymi səs anlayışı formalaşanda yaranır. Onlar artıq bilirlər ki, hərf səsin şərti işarəsidir.

M.: – Uşaqlar, gördüyünüz canlı və cansız varlıqların şəkillərini seçmək mümkündür. (Müəllim lövhəyə alma, kitab, insan, quş, maşın şəkilləri yapışdırır). Lövhədəki şəkillərə baxaq və onların adını deyək.

Lövhədəki şəkillər adlandırıldıqdan sonra müəllim onlara “a” hərfini göstərir və deyir: Bu isə “a” səsinin şəklidir (şərti işarəsidir), yəni “a” hərfidir. m, b, l, o, ə, u səslərinində şərti işarələri var. Biz onları deyəndə və eşidəndə “səs”, görəndə və yazanda isə “hərf” adlandırırıq.

Hərflərlə ilk tanışlıq kitabın sol səhifələrində öz əksini tapır. Müəllim şagirdlərə yeni keçəcəyi səs haqqında məlumat verib, tapşırıqları yerinə yetirdikdən sonra (səs yaxşı mənimsənilərsə) hərflə tanışlığa keçir.

Şagirdə barmağını üfüqi xətt boyunca hərəkət etdirməklə sətirdəki hərfi oxumağı öyrədin. Şagird bilməlidir ki, barmağı soldan sağa hərəkət etdirməli, bir xətt üzrə oxumalıdır. Əvvəlcə barmaq oxunan hərfin, sonra isə hecanın üstündə olmalıdır.

## Yazı texnikası ilə tanışlıq

“Əlifbaya hazırlıq” dövründən başlayaraq hazırlıq işləri (nöqtələri birləşdir və rənglə qırıq xətləri birləşdir və s) aparmaqla həyata keçirilir. Şəkil çəkmə, düzgün rəngləmə, qələmdən düzgün istifadə kimi hazırlıq mərhələlərində əllər fiziki cəhətdən yazıya hazırlanır, bilək əzələləri möhkəmlənir. Yazı prosesi düzgün, ardıcıl, bir-biri ilə bağlı xüsusi elementlər vasitəsilə həyata keçirilir. Yazının öyrədilməsi üçün tərtib olunmuş tapşırıqlar uşaqlara hərflərin sadə elementlərinin (I kitab) yazılmasının ilkin bacarıqlarını öyrədir. Yeni öyrədiləcək əl yazısı (II kitabda) aşağıdakı ardıcıllıqla mənimsənilir;

- hərfin əl yazısı və şəkli ilə tanışlıq;
- hərfin elementlərinin yazılması;
- içərisində öyrədiləcək hərf olan heca və sözlərin yazılması.

LAYİHƏ

### Müəllimin rolu

Sağlamlıq imkanları məhdud olan uşağın təlim-tərbiyə işində qarşıya qoyulan vəzifələrin icrasında əsas yük valideyn və müəllimin üzərinə düşür. Bunların hər birinin ixtisas və vəzifələrinə uyğun olaraq, yerinə yetirdikləri funksiyalar müxtəlifdir. Müəllimin vəzifələri:

- təhsilə cəlb olunmuş şagirdin fərdi xüsusiyyətlərini bilmək;
- xüsusi təhsillə bağlı nəzəri və praktik biliklərə malik olmaq;
- SİM şagirdlərin fərdi tədris planının hazırlanmasında iştirak etmək;
- SİM şagirdlərin daha çox maraq göstərdikləri fənlərlə əlaqəsini təmin etmək;
- müəssisədə təhsil alan hər bir şagirdin uğurları ilə bağlı müşahidələr aparmaq;
- hər yarımilliyin sonunda məktəb rəhbərliyi qarşısında hesabat vermək;
- şagird haqqında bütün məlumatların məxfiliyini qorumaq;
- SİM şagirdin fərdi və qrup fəaliyyətlərinə cəlb olunmasına kömək etmək;
- SİM uşaqların portfoliolarını hazırlamaq;
- məktəb psixoloqu və loqoped ilə əməkdaşlıq etmək;
- valideynləri SİM şagirdin inkişaf dinamikası barədə müntəzəm məlumatlandırmaq.

## Təlim texnologiyaları

### Təlimin təşkili

| | |
|---|---|
| **Təlimin təşkilinə verilən tələblər** | • Pedaqoji prosesin tamlığı;<br>• Təlimdə bərabər imkanların yaradılması;<br>• Dəstəkləyici mühitin yaradılması;<br>• Şagirdyönümlülük;<br>• İnkişafyönümlülük;<br>• Şagird fəaliyyətin stimullaşdırılması. |

### Təlimin formaları




- ***Fərdi iş:*** yüngül və orta əqli geriliyi olan uşaqlarla işləmək üçün əlverişli iş formasıdır (tədris olunan bütün fənlərdə). Şagirdlərin inkişaf səviyyəsini izləməyə, zəif cəhətləri müəyyən edib, korreksiya işinin sistemləşdirilməsinə şərait yaradır.
- ***Cütlərlə iş formasının:*** fiziki inkişaf, ritmika, müalicəvi bədən tərbiyəsi və başqa dərslərdə istifadəsi mümkündür. Şagirdlər verilən tapşırıqları (müəllimin nəzarəti) birlikdə yerinə yetirməyə çalışırlar. Bu iş formasında dostluq, yoldaşlıq, əməkdaşlıq etməyə və ünsiyyət qurmağa, bir- birinin qarşısında öz məsuliyyətlərini dərk etməyə imkan yaranır.

LAYİHƏ

## Təlim üsulları

| | |
|---|---|
| **Təlim üsulları** | Ziqzaq, karusel, BİBÖ, beyin həmləsi, Venn diaqramı, debat, diskussiya, rollu oyunlar, söz assosiasiyası, anlayışın çıxarılması və s. |

***İstifadə edə biləcəyimiz təlim üsulları bunlardır:***

- ***Beyin həmləsi.*** Bu üsuldan istifadə etməkdə məqsəd problemin həlli yollarının necə araşdırılmasını öyrətmək, müəyyən situasiyalardan çıxış yolları tapmaq, onları təhlil etmək, daha səmərəli həll yollarının tapılması ilə bağlı qərar qəbul etmək qabiliyyətini inkişaf etdirməkdir. (didaktik tapşırıqların yerinə yetirilməsində, kiçik və böyük motor əzələlərin inkişafı üçün verilən tapşırıqların sona qədər icrasında və s.)
- ***Diskussiya.*** Münaqişəli sualların həlli üzrə təlimin ən səmərəli üsulu hesab olunur. Müəllim müzakirə mövzusunu ( məs: Lövhədə çəkdiyim şəkil üçbucaqdır, yoxsa kvadrat?; Şəkildə gördüyün dəftərdir, yoxsa kitab? kimi sualların cavabları diskussiya zamanı qısa şəkildə deyil, geniş izahla alınır) inkişaf etdirəcək suallar verməklə şagirdlərin cavablarını nəzərdən keçirir, nitqi aktivləşdirir. İştirakçılar müzakirə olunan məsələyə dair fikirlərini başqalarına çatdırır, onları sübut etməyə çalışırlar.
- ***Rollu oyunlar.*** Bü üsul hər hansı bir problemə müxtəlif nöqteyi-nəzərlərdən yanaşmalardan ibarətdir. İştirakçılar müxtəlif rolları öz üzərlərinə götürür və hər hansı bir hadisəni bu mövqelərdən qiymətləndirirlər. (məs: “Nəzakət qaydaları”, “Yol hərəkəti qaydaları” mövzularında). Rollu oyunlar yeni davranış modellərinə yiyələnməyə imkan verir, qarşılıqlı ünsiyyəti yaxşılaşdırır.
- ***Söz assosiasiyası.*** Bu üsul 2-3 dəqiqə ərzində sözlər arasında əlaqəni nəzərə almağa imkan verir. Müəllim şagirdlərə bir söz deyir, şagirdlər həmin sözlə əlaqədar lüğət ehtiyatına nəzər salır və müvafiq sözlər sadalayır, məs: müəllim lalə deyir, şagirdlər dərhal nərgiz, çobanyastığı, bənövşə deyirlər. Söz assosiasiyası şagirdlərin təfəkkürünü inkişaf etdirir, lüğət ehtiyatını zənginləşdirir.
- ***Anlayışın çıxarılması.*** Bu üsul oyun-tapmaca formasındadır və şagirdlərdə yüksək fəallıq yaradır, məntiqi təfəkkürü formalaşdırır. məs: at almaq üçün onun əlamətləri sayılır.

***Müəllim üçün dərsin təşkili ilə bağlı tövsiyələr***

- Oxu dərsində kitabı açmaqda kömək etmək, materialın səhifəsini və oxunacaq mətni göstərmək lazımdır. Oxu zamanı uşağın diqqəti yayına bilər. Bunu nəzərə alaraq, müəyyən vaxt keçdikdən sonra bir daha uşağa yaxınlaşmaq, mətni izləməyə kömək etmək vacibdir.
- Sinifdə verilən tapşırıqların həcmini azaltmaq (suallar oxunmuş mətn əsasında verilirsə, şagirdlərlə cəmi 2-3 sualı müzakirə etmək və ya mətnin yarısını oxumaq) lazımdır.
- Şagirdlərə cavab üçün artıq vaxt vermək (şagirdlərin reaksiyaları ləng ola bilər) zəruridir.
- Yazılı tapşırıqların həlli üçün daha çox vaxt tələb olunur. Bu zaman müəllimin köməyinə ehtiyac var (dəftəri tapmaq, açmaq, qələmi tapmaq və s.).

LAYİHƏ

Yuxarıda qeyd etdiyimiz kimi, təqdim olunan dərslik və metodik vəsaitlər yüngül və orta dərəcəli əqli geriliyi olan şagirdlər üçün hazırlanmışdır. Bəs hər bir müəllim bu kateqoriyaya aid olan şəxslər haqqında məlumatlıdırlarmı? Gəlin qısa olaraq əqli geriliyin bir neçə növü ilə tanış olaq:

***F70 yüngül dərəcəli əqli gerilik***

Təxmini IQ 50-69 (ahıl yaşda əqli inkişaf 9-12 yaşa uyğundur). Məktəbdə təhsillə bağlı çətinliklər olur. Bu şəxslər işləmək, normal ictimai münasibətlər yaratmaq və cəmiyyətə fayda verə bilmək iqtidarındadırlar. Daxil edilib: ağıl zəifliyi, zəif dərəcəli əqli subnormallıq.

***F71 orta dərəcəli əqli gerilik***

Təxmini IQ 35-dən 49 arasında dəyişir. (ahıl yaşda əqli inkişaf 6-9 yaşa uyğundur). Uşaqlıqdan nəzərə çarpacaq inkişaf geriliyi olsa da, onların əksəriyyəti təhsil alaraq iş adekvat ünsiyyət təlim vərdişləri və özünəxidmət səviyyəsi qazana bilər. Yaşlılar həyatında və məişətdə müxtəlif yardım növlərinə möhtacdırlar. Daxil edilib: orta dərəcəli əqli subnormallıq

***F72 ağır dərəcəli əqli gerilik***

Təxmini IQ 50-69 (ahıl yaşda əqli inkişaf 9-12 yaşa uyğundur). Məktəbdə təhsillə bağlı Təxmini IQ 20-34 arasında dəyişir (ahıl yaşda əqli inkişaf 3-6 yaşa uyğundur). Daimi yardım zəruridir. Daxil edilib: kəskin nəzərə çarpan əqli subnormallıq

***F73 çox ağır əqli gerilik***

Təxmini IQ 20-dir (ahıl yaşda əqli inkişaf 3 yaşa uyğundur). Bunun nəticəsində özünəxidmətin, ünsiyyət qabiliyyətinin məhdudluğu, seksuallığın artması nəzərə çarpır. Daxil edilib: çox ağır əqli subnormalıq

***F78 əqli geriliyin digər formaları***

(Yarımrubrikanı müəyyən etmək üçün F70-dək olan yarımrubriklərə baxın).

***F79 dəqiqləşdirilməmiş əqli gerilik***

(Yarımrubrikanı müəyyən etmək üçün F70-dək olan yarımrubriklərə baxın). Daxil edilib: ƏGO əqli çatışmazlıq, ƏGO əqli subnormallıq

## Qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqlarının qiymətləndirilməsi təlim prosesinin ayrılmaz tərkib hissəsidir. Qiymətləndirmə olmadan dərsi səmərəli qurmaq və şagirdin FTP-nı tərtib etmək mümkün deyil. Qiymətləndirmə zamanı müəllim və mütəxəssislərdən ibarət bir komanda:

LAYİHƏ

psixoloq, loqoped, sinif müəllimi, tədris işlər üzrə direktor müavini iştirak edir. Daha dəqiq məlumatlar əldə etmək məqsədilə qiymətləndirmədə valideynlərin iştirakı da yolverilləndir. Şagirdin əldə etdiyi nailiyyətlərdən asılı olaraq qiymətləndirmə ildə bir və ya iki dəfə keçirilə bilər. Şagirdin bilik və bacarıqlarının qiymətləndirilməsi bir neçə sahə üzrə aparılmalıdır:

- Dinləmə;
- Danışma;
- Sadə şifahi nitq;
- Anlama;
- Yazı (motorika);
- Qrupda fəaliyyət.

## Dinləmə

| № | Meyarlar | Nəticə + | - |
|---|---|---|---|
| 1 | Nağıl dinlədiyi zaman emosiyalarını bildirir. | | |
| 2 | Danışanı sonadək dinləyir və onunla göz kontaktı saxlayır. | | |
| 3 | Dinlədiyi mövzuları yadda saxlayır. | | |
| 4 | Mənasını bilmədiyi sözləri soruşur. | | |
| 5 | Dinlədiyi mövzuya aid suallar verir. | | |
| 6 | Dinlədiyi mövzulardan nəticə çıxarır. | | |

## Danışma

| № | Meyarlar | Nəticə + | - |
|---|---|---|---|
| 1 | Danışarkən özünü sərbəst hiss edir. | | |
| 2 | Danışıq zamanı yersiz hərəkətlərə yol vermir. | | |
| 3 | Təkrar olunan, yersiz sözlərdən istifadə etmir. | | |
| 4 | Aydın səslə, axıcı və səlis danışır. | | |
| 5 | Sözləri orfoepik normalara uyğun tələffüz edir. | | |
| 6 | Cümlələri düzgün və anlaşıqlı qurur. | | |
| 7 | Öyrəndiyi yeni sözlərdən istifadə edir. | | |

## Yazı

| № | Meyarlar | Nəticə + | - |
|---|---|---|---|
| 1 | Cızma-qara edir. | | |
| 2 | Verilən şəkilləri nümunəyə uyğun rəngləyir. | | |
| 3 | Əllər fiziki cəhətdən yazıya hazırdır. | | |
| 4 | Yazı elementlərini yazmağı bacarır. | | |

LAYİHƏ

| | | | |
|---|---|---|---|
| 5 | Hərfləri müəllimin köməyi vasitəsi ilə yazmağa çalışır. | | |
| 6 | Hərfləri yalnız qırıq xətlərin üzəri ilə gedərək yaza bilir. | | |

## Qrupda fəaliyyət

| № | Meyarlar | Nəticə + | - |
|---|---|---|---|
| 1 | Qrupda özünü sərbəst hiss edir. | | |
| 2 | Qrup fəaliyyətində qrup üzvləri ilə paylaşır. | | |
| 3 | Qrup fəaliyyətlərində qismən iştirak edə bilir | | |

## Sadə şifahi nitq

| № | Meyarlar | Nəticə + | - |
|---|---|---|---|
| 1 | Şəkilləri adlandıra bilir. | | |
| 2 | Lüğət ehtiyatı qənaətbəxşdir. | | |
| 3 | Fikrini sərbəst ifadə edir. | | |
| 4 | Müəllimin köməyi ilə şəkil üzrə cümlələr qurur. | | |
| 5 | Sərbəst cümlə qura bilir. | | |

***Fərdi tədris planı (FTP) və plan üzrə işləmə ardıcıllığı.***

***Uşağın hazırkı bilik və bacarıq səviyyəsi.***

Buraya uşağın diaqnostik qiymətləndirilməsi zamanı toplanmış məlumatlara əsaslanan inkişaf səviyyəsi haqqında məlumat daxil edilir.

***Məqsəd və vəzifələr.***

Bura komanda üzvləri tərəfindən müəyyən edilmiş, əsas bacarıq və davranışların mənimsənilməsində uşağa kömək edəcək məqsəd və vəzifələr daxil edilir.

***Xüsusi və əlavə xidmətlər.***

Bu bölmədə uşağa göstəriləcək xüsusi xidmətlərin siyahısı verilir.

Sinif mühitinin uyğunlaşdırılması və işin təşkili. Bu bölmədə uşağın təhsil almasına yardım edəcək sinif uyğunlaşdırmaları və işin təşkilində edilən dəyişikliklər təsvir olunur.

***Fəaliyyət müddəti.***

Buraya planın ümumi fəaliyyət müddəti və ayrı-ayrı xidmətlərin təqdim edilmə müddəti haqqında informasiya daxil edilir.

***Uşağın uğurları haqqında informasiya.***

Formativ qiymətləndirmə və uşağın uğurlarının monitorinqi FTP-nin ayrılmaz tərkib hissəsidir. İnformasiyanın əldə olunması üçün müşahidə, nəzarət kartları, uşaqların işləri, davranışın müşahidə olunması zamanı aparılan qeydlər və s. üsullardan istifadə etmək olar.

LAYİHƏ

**Fərdi tədris planı nümunəsi:**

Planın tərtib edildiyi tarix: 15.10.2019
Şagird haqqında məlumat
Təvəllüdü:____________________Yaşı:__________Cinsi: ____________________
Məktəb: ____________________________ Sinif: ____________________
Valideynlər: ____________________________________________________
________________________________________________________________
Diaqnozu və əsas çətinlikləri (sensor və fiziki, sosial-emosional, koqnitiv və s.): _______
________________________________________________________________
Əlaqə telefonu və ünvanı:________________________________________________
________________________________________________________________

***Keçilənləri möhkəmləndirmək məqsədi ilə istifadə olunan oyunlar. (nümunə)***

***Oyun: "Sual cavab oyunu".***

***Məqsəd:*** Şagirdlərdə göz yaddaşını, cəldliyi və diqqəti, düzgün cümlə qurmağı və s. inkişaf etdirir.

***Vəsait:*** orta ölçüdə top

Oyunun gedişi. Uşaqlar dairə formasında düzülürlər. Müəllim oyunun qaydasını izah edir:

− Mən sual verib, əlimdəki topu bir nəfərə atacağam. Topu tutan uşaq suala cavab verib, yenidən mənə atmalıdır. Cavab verə bilməyən uşaq topu bir dəfə yerə vurub, sonra atmalıdır. Hər düzgün cavaba görə bir xal qazanacaqsınız.

Müəllim sual verərək, topu növbə ilə uşaqlara atır: ( Həmin dərslə bağlı bütün şəkillər yığışdırılır ). ***Məs:*** “Sinfimiz” mövzusu.

− Sinifdə kimlər var idi?
− Müəllim harada dayanmışdı?
− Kitab rəfinin üstündə nə var idi?

Çox xal toplayan uşaq qalib sayılır. Başqa suallarla da uşağın diqqəti və yaddaşı yoxlanır, inkişaf etdirilir.

***Oyun: “Gördüyünü de”.***

***Məqsəd:*** Uşaqlarda ixtiyari diqqəti, görmə qavrayışını, nitqin qrammatik düzgünlüyünü inkişaf etdirir.

***Vəsait:*** dərslikdəki süjetli şəkillər və əşyalar.

Oyunun gedişi. Uşaqlar yarımdairə formasında müəllimin qarşısında dayanırlar. Müəllim uşaqlara növbə ilə sual verir, suala düzgün cavab verən şagird bir addım müəllimə yaxınlaşır. (Böyük motor bacarıqlarının inkişafı) Müəllim düzgün cavab verməyən şagirdin səhvini təxirə salmadan düzəldir və uşağı düzgün cavabı təkrar etməyə sövq edir.

***Məs:*** “ Mənin ailəm “ mövzusu.

− Şəkildə kimlər var idi?

LAYİHƏ

– Baba nə edirdi?

– Uşaqlar nə ilə oynayırdılar?

Cavabları ilk deyilişdən düzgün olan şagirdlər qalib hesab olunurlar.

***Oyun: "Belədir, ya belə deyil?"***

***Məqsəd:*** Məntiqi təfəkkürü, nitq aparatını inkişaf etdirir. Nitqdəki uyğunsuzluğu tez aşkarlamağa xidmət edir.

***Vəsait:*** Mövzuya aid şəkillər.

***Oyunun gedişi:***

– Uşaqlar, mən sizə indi fikirlər ( cümlələr ) söyləyəcəyəm, siz diqqətlə mənə qulaq asın, çünki düzgün olmayan fikirlər də söyləyə bilərəm. Siz isə mənim səhvimi düzəldəcəksiniz.

Bu göstərişi verdikdən sonra müəllim aramla keçilən mövzu haqqında fikirlər söyləyir:

***Məsələn***: " Bağda " mövzusu ( müəllim elə əyləşir ki, lövhədə asılmış şəkli görməsin ).

***M:*** Şəkildə həyət təsvir olunmuşdur.

***Ş:*** Belə deyil, şəkildə bağ təsvir edilmişdir.

***M:*** Uşaqlar ağacdan nar dərirlər.

***Ş:*** Xeyr, uşaqlar alma və armud dərirlər.

Fikirlərdəki uyğunsuzluqları tapıb düzəldən şagird bir kart alır. Oyunun sonunda kimin kartı çoxdursa, o, qalib hesab olunur.

***Dərs zamanı şagirdlərə qısamüddətli fasilə vermək məqsədilə keçiriləcək hərəkətli oyunlar (nümunə)***

**Qırmızı, sarı, yaşıl**

Uşaqlar dairədə düzülürlər, müəllim əlində üç dairə tutaraq mərkəzdə dayanır. Müəllim rəngli dairələri qaldıraraq komanda verir: " Dayan!", " Hazırlaş!","Hərəkətə başla!". Tapşırığı səhv yerinə yetirən şagird oyundan kənarlaşdırılır.

**Əşyanı tap**

Bir şagird gözlərini bağlayır, 2-3 şagird əşyanı (say çöpü, kubik və s. ) gizlədir. Sonra axtaran şagirdə "marşrutu" söyləyirlər: iki addım irəli, üç addım sağa və s.

**Gün rejimi**

Şagirdlərə gün rejiminə aid süjetli şəkillər paylanır.Şagirdlər həmin şəkillərə baxaraq qaydaya uyğun sıraya düzülürlər.

LAYİHƏ

## Bu kimdir?

Müəllim şagirdlərə müxtəlif heyvanların təsviri olan  kartlar paylayır, lakin uşaqlar həmin təsvirləri bir-birinə göstərmirlər.Şagirdlər növbə ilə şəkildə olan heyvanları təqlid edir, digər uşaqlar isə həmin heyvanın adını söyləyirlər.

## Topla oyun.

Şagirdlər  parta arxasında otururlar. Birinci partalarda oturan şagirdlərə bir top verilir. Müəllimin komandası ilə  şagirdlər topu  arxada oturan yoldaşlarına ötürürlər .Sonuncu partada oturan şagird  topu müəllimə verir. Hansı sıra topu tez təhvil versə, həmin komanda qalib sayılır.

## Əlavə edilən nədir?

***Məqsəd:*** Şagirdlərdə ixtiyari diqqəti, görmə qavrayışını, yaddaşı inkişaf etdirir.

***Vəsait:*** Mövzuya aid şəkillər.

***Oyunun qaydası:*** Şagird əvvəlki şəkildəki təsvirdə nəyin olmadığını və sonrakı şəkildə nəyin əlavə olunduğunu tapmalıdır.

***Oyunun gedişi:*** Uşaqlar şəkil üzrə müsahibəni yekunlaşdırdıqdan sonra həmin şəkil yığışdırılır və ona oxşar digər şəkil göstərilir. Şəkildə nəyin əksik, nəyin əlavə olunduğunu soruşmaq lazımdır. Daha çox fərq tapan şagird qalib hesab olunur.

***Məs:*** “ Turp “ nağılı.

Müəllim nağılı və yaxud hansısa süjetli şəkli əvvəlcədən fərqli bir formada hazırlamalıdır.

LAYİHƏ

## TƏQVİM-TEMATİK PLANLAŞDIRMA

*"Azərbaycan dili" (I sinif) SİM olan uşaqlar üçün Proqram.*
*Həftədə 4 saat. Cəmi 140 saat. (I yarımillik 70 saat)*

| | | Saat | Səhifə |
|---|---|---|---|
| **1** | Mən məktəbə gedirəm | 2 s | 7 |
| **2** | Məktəb ləvazimatları | 2 s | 8-9 |
| **3** | Ailə üzvləri | 2 s | 10-11 |
| **4** | Mənim oyuncaqlarım | 2 s | 12-13 |
| **5** | Meyvələr | 1 s | 14-15 |
| **6** | Tərəvəzlər | 1 s | 16-17 |
| **7** | "Turp" nağılı | 2 s | 18-19 |
| **8** | Ev heyvanları | 2 s | 20 |
| **9** | Vəhşi heyvanlar | 2 s | 21 |
| **10** | Ev quşları | 2 s | 22 |
| **11** | Çöl quşları | 2 s | 23 |
| **12** | Ümumiləşdirici tapşırıq | 2 s | 24-25 |
| **13** | Bədən üzvləri. "Təmizlik" şeri (Abdulla Şaiq) | 1 s | 26-27 |
| **14** | Bədən üzvlərinin adını söylə. | 1 s | 26-27 |
| **15** | Duyğu orqanları | 1 s | 28-29 |
| **16** | "Tıq-tıq xanım" nağılı | 2 s | 30-31 |
| **17** | Peşələr | 2 s | 32-33 |
| **18** | Yol hərəkəti qaydaları | 2 s | 34 |
| **19** | Küçədə | 1 s | 35 |
| **20** | Nəqliyyat vasitələri | 2 s | 36-37 |
| **21** | Günün hissələri | 2 s | 38-39 |
| **22** | Fəsillər | 2 s | 40-41 |
| **23** | Bu, nə vaxt olur? (ŞÜM) | 2 s | 42 |
| **24** | Ümumiləşdirici tapşırıqlar | 2 s | 43-44 |
| **25** | "Tülkü və Leylək" nağılı | 2 s | 45 |
| **26** | Süjetli şəkillər | 2 s | 47 |
| **27** | Mebel əşyaları | 2 s | 49 |
| **28** | Geyimlər | 2 s | 51 |
| **29** | Dövlət rəmzləri | 2 s | 52 |
| **30** | Vətənim. "Ana yurdum" (Abdulla Şaiq) | 2 s | 53 |
| **31** | Mağazada | 2 s | 54-55 |
| **32** | Mətbəx əşyaları | 2 s | 56-57 |

LAYİHƏ

| | | | |
|---|---|---|---|
| **33** | Elektrik avadanlıqları | 2 s | 58-59 |
| **34** | Süjetli şəkil üzrə iş | 2 s | 60-61 |
| **35** | Bitkilər | 2 s | 62-63 |
| **36** | “Qoğal” nağılı | 2 s | 64-65 |
| **37** | Canlı və cansız aləm | 2 s | 66-67 |
| **38** | Ümumiləşdirici tapşırıqlar | 2 s | 68-71 |

| | | **Saat** | **Səhifə** |
|---|---|---|---|
| **1** | **A a** səsi və hərfi | 4 s | 6-9 |
| **2** | **N n** səsi və hərfi | 4 s | 10-13 |
| **3** | **Ə ə** səsi və hərfi | 4 s | 14-17 |
| **4** | Keçilənlərin təkrarı | 3 s | 21 |
| **5** | **T t** səsi və hərfi | 4 s | 22-25 |
| **6** | **L l** səsi və hərfi | 4 s | 26-29 |
| **7** | Keçilənlərin təkrarı | 3 s | 30-33 |
| **8** | **M m** səsi və hərfi | 4 s | 34-37 |
| **9** | **İ i** səsi və hərfi | 4 s | 38-41 |
| **10** | Keçilənlərin təkrarı | 3 s | 42-45 |
| **11** | **B b** səsi və hərfi | 4 s | 46-49 |
| **12** | **R r** səsi və hərfi | 4 s | 50-53 |
| **13** | Keçilənlərin təkrarı | 2 s | 54-57 |
| **14** | **I ı** səsi və hərfi | 4 s | 58-61 |
| **15** | **D d** səsi və hərfi | 4 s | 62-65 |
| **16** | Keçilənlərin təkrarı | 3 s | 66-69 |
| **17** | **Y y** səsi və hərfi | 4 s | 70-73 |
| **18** | **O o** səsi və hərfi | 4 s | 74-77 |
| **19** | Keçilənlərin təkrarı | 3 s | 78-81 |
| **20** | **S s** səsi və hərfi | 4 s | 82-85 |
| **21** | **U u** səsi və hərfi | 4 s | 86-89 |
| **22** | **K k** səsi və hərfi | 4 s | 90-93 |
| **23** | Keçilənlərin təkrarı | 2 s | 94-103 |

LAYİHƏ

| | | Saat | Səhifə |
|---|---|---|---|
| 1 | Tanışlıq (məktəb ləvazimatları) | 1 s | 5 |
| 2 | Yazı bacarıqlarının yoxlanması və qiymətləndirilməsi | 1 s | 6 |
| 3 | Yazı ləvazimatları ilə tanışlıq | 1 s | 8 |
| 4 | Yazı elementləri | 2 s | 9-13 |
| 5 | Yazı elementləri | 2 s | 9 |
| 6 | Yazı elementləri | 2 s | 11 |
| 7 | Yazı elementləri | 2 s | 15 |
| 8 | Yazı elementləri | 2 s | 17 |
| 9 | Yazı elementləri | 2 s | 19 |
| 10 | Yazı elementləri | 2 s | 21 |
| 11 | Yazı elementləri | 2 s | 23 |
| 12 | Təkrar | 2 s | 25 |
| 13 | Yazı elementləri | 2 s | 26 |
| 14 | Yazı elementləri | 2 s | 29 |
| 15 | Yazı elementləri | 2 s | 31 |
| 16 | Yazı elementləri | 2 s | 33 |
| 17 | Yazı elementləri | 2 s | 34-41 |
| 18 | Yazı elementləri | 2 s | 34 |
| 19 | Yazı elementləri | 2 s | 37 |
| 20 | Yazı elementləri | 2 s | 39 |
| 21 | Yazı elementləri | 2 s | 42 |
| 22 | Təkrar | 2 s | 44 |
| 23 | Yazı elementləri | 2 s | 45 |
| 24 | Yazı elementləri | 2 s | 47 |
| 25 | Yazı elementləri | 2 s | 49 |
| 26 | Yazı elementləri | 2 s | 51 |
| 27 | Yazı elementləri | 2 s | 52 |
| 28 | Yazı elementləri | 2 s | 55 |
| 29 | Yazı elementləri | 2 s | 57 |
| 30 | Yazı elementləri | 2 s | 59 |
| 31 | Yazı elementləri | 2 s | 61 |
| 32 | Yazı elementləri | 2 s | 63 |
| 33 | Yazı elementləri | 2 s | 65 |
| 34 | Yazı elementləri | 2 s | 67 |
| 35 | Təkrar | 5 s | 69-71 |

LAYİHƏ

| | | Saat | Səhifə |
|---|---|---|---|
| 1 | **A a** hərfinin yazılışı | 3 s | Səh 7-9 |
| 2 | **N n** hərfinin yazılışı | 3 s | Səh 11-13 |
| 3 | **Ə ə** hərfinin yazılışı | 3 s | Səh 15-17 |
| 4 | Keçilənlərin təkrarı | 3 s | Səh 18-21 |
| 5 | **T t** hərfinin yazılışı | 3 s | Səh 22-25 |
| 6 | **L l** hərfinin yazılışı | 3 s | Səh 27-29 |
| 7 | Keçilənlərin təkrarı | 3 s | Səh 30-33 |
| 8 | **M m** hərfinin yazılışı | 3 s | Səh 35-37 |
| 9 | **İ i** hərfinin yazılışı | 3 s | Səh 39-41 |
| 10 | Keçilənlərin təkrarı | 3 s | Səh 42-45 |
| 11 | **B b** hərfinin yazılışı | 3 s | Səh 47-49 |
| 12 | **R r** hərfinin yazılışı | 3 s | Səh 51-53 |
| 13 | Keçilənlərin təkrarı | 3 s | Səh 54-57 |
| 14 | **I ı** hərfinin yazılışı | 3 s | Səh 59-61 |
| 15 | **D d** hərfinin yazılışı | 3 s | Səh 63-65 |
| 16 | Keçilənlərin təkrarı | 3 s | Səh 66-69 |
| 17 | **Y y** hərfinin yazılışı | 3 s | Səh 71-73 |
| 18 | **O o** hərfinin yazılışı | 3 s | Səh 75-77 |
| 19 | Keçilənlərin təkrarı | 3 s | Səh 78-81 |
| 20 | **S s** hərfinin yazılışı | 3 s | Səh 83-85 |
| 21 | **U u** hərfinin yazılışı | 3 s | Səh 87-89 |
| 22 | **K k** hərfinin yazılışı | 3 s | Səh 91-93 |
| 23 | Keçilənlərin təkrarı | 4 s | Səh 94-98<br>100-102 |

LAYİHƏ

## ƏLİFBA TƏLİMİNƏ HAZIRLIQ

**Mövzu: 1.** *Mən məktəbə gedirəm.*
**Təlim məqsədi:** Şagird məktəb haqqında məlumat verir.

| Dərsin tipi | İş forması | Metodlar | İnteqrasiya | Resurslar |
|---|---|---|---|---|
| İnduktiv | Fərdi iş, Böyük qruplarla iş | Diskussiya, beyin həmləsi, müzakirə | Nitq inkişafı, riyaziyyat | Dərslik, məktəb, məktəbli şəkilləri və ya maketləri |

### Motivasiya

Müəllim uşaqların fikrini mövzuya yönəltmək məqsədi ilə "Mən məktəbə gedirəm" şeirini şagirdlərə səsləndirir:

– Uşaqlar, bu şeirdə nədən danışılır? (məktəb)

Müəllim dərslikdəki şəkli şagirdlərə göstərir və qısa məlumat verir.

***Tədqiqat sualı.*** Uşaqlar məktəbə nə üçün gedirlər?

***Tədqiqat aparılması.*** Şəklə əsasən suallar verir.

**1.** Şəkildə nə təsvir olunub? (məktəb binası)

**2.** Uşaqlar hara gedirlər? (məktəbə)

**3.** Qız kimin əlindən tutub? (anasının)

**4.** Oğlanın əlində nə var? (gül dəstəsi)

**Tətbiqetmə.** *Tapşırıq: 1, 2 (səh.7)*

**Qiymətləndirmə.** Müşahidə əsasında aparılır.

LAYİHƏ

## **Mövzu: 2.** *Məktəb ləvazimatları (1-ci dərs)*

**Təlim məqsədləri:** 1. Şagird məktəb ləvazimatlarını tanıyır və adlandırır.

2. Məktəb ləvazimatlarından nə üçün istifadə edildiyini bilir.

| Dərsin tipi | İş forması | Metodlar | İnteqrasiya | Resurslar |
|---|---|---|---|---|
| İnduktiv | Fərdi iş, Böyük qruplarla iş | Beyin həmləsi, diskussiya, müzakirə | Nitq inkişafı, riyaziyyat | Dərslik, məktəb ləvazimatlarının şəkilləri |

### Motivasiya

Müəllim uşaqların fikrini mövzuya yönəltmək məqsədi ilə üzərində məktəb ləvazimatlarının şəkilləri olan kartları şagirdlərə göstərir:

– Uşaqlar, sizin ən çox sevdiyiniz məktəb əşyası hansıdır? (Hər şagird öz sevdiyi məktəb əşyasının şəklini göstərir).

Müəllim dərslikdəki ləvazimatların şəkillərini uşaqlara göstərir və onlardan istifadə qaydalarını izah edir.

***Tədqiqat sualı.*** Şəkildə gördüyünüz məktəb ləvazimatları nə üçündür?

***Tədqiqat aparılması.*** Müəllim şagirdlərə məktəb ləvazimatları haqqında suallar verir.

**1.** Qələmdən nə üçün istifadə olunur? (yazı yazmaq üçün)

**2.** Xətkeşdən nə üçün istifadə olunur? (düz xətt çəkmək üçün)

**3.** Çanta nə üçündür? (məktəb ləvazimatlarını yığmaq üçün)

**Tətbiqetmə.** *Tapşırıq: 2, 3 (səh. 8)*

**Qiymətləndirmə.** Müşahidə əsasında aparılır.

LAYİHƏ

## Mövzu: 3. *Sinfimiz (2-ci dərs)*

**Təlim məqsədləri:** Şagird sinif əşyalarını tanıyır və adlandırır.
2. Şagird müəllim və şagird anlayışını bilir.

| Dərsin tipi | İş forması | Metodlar | İnteqrasiya | Resurslar |
|---|---|---|---|---|
| İnduktiv | Fərdi iş, Böyük qruplarla iş | Beyin həmləsi, diskussiya, müzakirə | Nitq inkişafı, həyat bilgisi, riyaziyyat | Dərslik, müəllim, şagird və sinif əşyalarını əks etdirən şəkillər, sinif əşyalarına aid oyuncaqlar |

### Motivasiya

Müəllim şagirdlərin fikrini dərsə yönəltmək məqsədi ilə onlara üzərində parta şəkli olan kartı göstərərək sual verir:

– Uşaqlar, şəkildə gördüyünüz nədir və harada istifadə olunur? (Partadır, sinifdə istifadə olunur).

Müəllim dərslikdəki “Sinfimiz” mövzusunda olan şəkli şagirdlərə göstərərək, onlar haqqında qısa məlumat verir.

***Tədqiqat sualı.*** Müəllim və şagirdlər nə edirlər?

***Tədqiqat aparılması.*** Sizin sinifinizdə hansı əşyalar var?

**1.** Şəkildə hara təsvir olunub? (sinif otağı)

**2.** Sinifdə kimlər var? (müəllim, şagirdlər)

**3.** Şəkildə daha nələri görürsünüz? (parta, kitab, dəftər, qələm)

**Tətbiqetmə.** *Tapşırıq: 2, 3 (səh. 9)*

**Qiymətləndirmə.** Müşahidə əsasında aparılır.

LAYİHƏ

## **Mövzu: 4.** *Ailə üzvləri (1-ci dərs)*

**Təlim məqsədi:** Şagird ailə üzvlərini tanıyır, onlar haqqında qısa məlumat verir.

| Dərsin tipi | İş forması | Metodlar | İnteqrasiya | Resurslar |
|---|---|---|---|---|
| İnduktiv | Fərdi iş, Böyük qruplarla iş | Beyin həmləsi, diskussiya, müzakirə | Nitq inkişafı, həyat bilgisi, riyaziyat | Dərslik, uzərində ailə üzvlərinin şəkilləri olan kartlar, ailə üzvlərinin fotoşəkli |

### Motivasiya

Müəllim lövhəyə ailə üzvlərinin şəkillərini asır və şagirdlərin fikrini dərsə yönəltmək məqsədi ilə onlara belə bir sual verir:

– Ailənizdə kimlər yaşayır?

– Fotoşəkildə olan ailə üzvlərini göstər və adlarını de.

Müəllim dərslikdəki ailə üzvlərinin şəkillərini uşaqlara göstərir və onların adlarını söyləyir.

***Tədqiqat sualı.*** Ailədə kimlər var?

***Tədqiqat aparılması.*** Şəklə əsasən suallar verir.

*1.* Ailənizdə neçə nəfər var? (Hər şagird öz ailə üzvlərinin sayını deyir).

*2.* Sənin bacın və ya qardaşın var? (Hər şagird öz bacı və ya qardaşı haqqında danışır).

*3.* Sən ailə üzvlərinlə birlikdə necə vaxt keşirirsən? (Hər şagird öz ailə üzvləri ilə necə vaxt keçirdiyi barədə məlumat verir).

**Tətbiqetmə.** *Tapşırıq: 2, 3 (səh. 10), “Ana” şeiri.*

**Qiymətləndirmə.** Müşahidə əsasında aparılır.

LAYİHƏ

## **Mövzu: 5.** *Mənim ailəm (2-ci dərs)*

**Təlim məqsədi:** Şagirdlər *ailə* anlayışını dərk edir, ailə üzvlərini adlandıra bilir.

| Dərsin tipi | İş forması | Metodlar | İnteqrasiya | Resurslar |
|---|---|---|---|---|
| İnduktiv | Fərdi iş, Böyük qruplarla iş | Beyin həmləsi, diskussiya, müzakirə | Nitq inkişafı, həyat bilgisi, riyaziyyat | Dərslik, ata, ana, bacı, qardaş şəkilləri və ya oyuncaqlar |

### Motivasiya

Müəllim şagirdlərin fikrini dərsə yönəltmək məqsədi ilə onlara üzərində ata, ana, bacı, qardaş, nənə, baba şəkilləri olan kartları göstərərək sual verir:

– Uşaqlar, şəkildə gördükləriniz nə adlanır? (ailə)

Müəllim dərslikdəki “Mənim ailəm” mövzusunda olan şəkli şagirdlərə göstərərək ailə haqqında qısa məlumat verir.

***Tədqiqat sualı.*** Şəkildə ailənin hansı üzvləri təsvir olunub?

***Tədqiqat aparılması.*** Şəklə əsasən suallar verir.

**1.** Şəkildə hara təsvir olunub? (otaq)

**2.** Otaqda kimlər var? (ata, ana, nənə, baba, bacı, qardaş)

**3.** Otaqda daha nə görürsünüz? (divan, kreslo, stol, stul, oyuncaqlar)

**Tətbiqetmə.** *Tapşırıq: 2, 3, 4 (səh. 11)*

**Qiymətləndirmə.** Müşahidə əsasında aparılır.

LAYİHƏ

## Mövzu: 6. *Mənim oyuncaqlarım (1-ci dərs)*

**Təlim məqsədi:** Şagirdlər oyuncaq adlarını və nə üçün istifadə edildiyini bilir.

| Dərsin tipi | İş forması | Metodlar | İnteqrasiya | Resurslar |
|---|---|---|---|---|
| İnduktiv | Fərdi iş, Böyük qruplarla iş | Beyin həmləsi, diskussiya, müzakirə | Nitq inkişafı, həyat bilgisi, riyaziyyat | Dərslik, oyuncaq şəkilli oyun kartları, oyuncaqlar |

### Motivasiya

Müəllim uşaqların fikrini cəlb etmək məqsədi ilə müxtəlif oyuncaqların şəkillərini göstərərək şagirdlərə sual verir:

– Uşaqlar, şəkildə nələr təsvir olunub?

Müəllim dərslikdəki şəkilləri şagirdlərə göstərir və onlar haqqında məlumat verir.

***Tədqiqat sualı.*** Evinizdə hansı oyuncaqlarız var ?

***Tədqiqat aparılması.*** Şəklə əsasən suallar verir.

*1.* Aydın hansı oyuncaqla oynayır? (maşın)

*2.* Lalənin sevimli oyuncağı hansıdır? (gəlincik)

**Tətbiqetmə.** *Tapşırıq: 2, 3 (səh. 12)*

**Qiymətləndirmə.** Müşahidə əsasında aparılır.

LAYİHƏ

## **Mövzu: 7.** *Mənim sevimli oyuncağım (2-ci dərs)*

**Təlim məqsədi:** Şagird gördüyü oyuncağı adlandırır, öz oyuncaqları haqqında məlumat verir.

| Dərsin tipi | İş forması | Metodlar | İnteqrasiya | Resurslar |
|---|---|---|---|---|
| İnduktiv | Fərdi iş, Böyük qruplarla iş | Beyin həmləsi, diskussiya, müzakirə | Nitq inkişafı, həyat bilgisi, riyaziyyat | Dərslik, üzərində oyuncaq şəkli olan kartlar və ya oyuncaqlar |

### Motivasiya

Müəllim şagirdlərin fikrini dərsə yönəltmək məqsədi ilə onlara üzərində oyuncaq şəkli olan kartları göstərərək sual verir:

– Uşaqlar, sizin sevimli oyuncağınız hansıdır? (Hər şagird öz sevimli oyuncağını göstərir).

Müəllim dərslikdəki “Mənim sevimli oyuncağım” mövzusunda olan şəkli şagirdlərə göstərərək, oyuncaqların adlarını deyir və şəkil üzrə onlara məlumat verir.

***Tədqiqat sualı.*** Şəkildə uşaqlar nə edir?

***Tədqiqat aparılması.*** Şəklə əsasən suallar verir.

**1.** Şəkildə hara təsvir olunub? (otaq)
**2.** Otaqda kimlər var? (qız və oğlan)
**3.** Oğlan nə edir? (.............................)
**4.** Qız nə edir? (.................................)
**5.** Şəkildə daha nə görürsünüz? (...........................)

**Tətbiqetmə.** *Tapşırıq: 2, 3, 4 (səh. 13)*

**Qiymətləndirmə.** Müşahidə əsasında aparılır.

LAYİHƏ

## **Mövzu: 5.** *Meyvələr* (**Mövzu: 6.** *Tərəvəzlər)* *(1-ci dərs)*

**Təlim məqsədi:** Şagird gördüyü meyvələri (tərəvəzləri) adlandırır və tanıyır. Onların fərqini izah edir.

| Dərsin tipi | İş forması | Metodlar | İnteqrasiya | Resurslar |
|---|---|---|---|---|
| İnduktiv | Fərdi iş, Böyük qruplarla iş | Beyin həmləsi, diskussiya, müzakirə | Nitq inkişafı, həyat bilgisi, riyaziyyat | Dərslik, üzərində meyvə (tərəvəz) şəkli olan kartlar və ya maketlər |

### Motivasiya

Müəllim şagirdlərin fikrini dərsə yönəltmək məqsədilə onlara üzərində meyvələrin (tərəvəzlərin) şəkilləri olan kartları şagirdlərə göstərir və sual verir:

– Uşaqlar, sevdiyiniz meyvə (tərəvəz) hansıdır? (Hər uşaq öz sevidiyi meyvənin (tərəvəzin) şəklini lövhədə göstərir).

Müəllim dərslikdəki meyvələrin (tərəvəzlərin) şəkillərini şagirdlərə göstərir və onlar haqqında qısa məlumat verir.

***Tədqiqat sualı.***

**1.** Kartlarda təsvir olunan meyvə (tərəvəz) şəkillərini seçin və adlandırın.

**2.** Meyvələr (tərəvəzlər) harada bitir?

**3.** Daha hansı meyvələri (tərəvəzləri) tanıyırsınız?

***Tədqiqat aparılması.*** Şagirdlərə meyvə şəkillərini tapmaq və adlandırmaq tapşırılır.

**Tətbiqetmə.** *Tapşırıq: Meyvələr 2, 3 (səh. 14); Tərəvəzlər 2, 3 (səh. 16).*

**Qiymətləndirmə.** Müşahidə əsasında aparılır.

LAYİHƏ

## **Mövzu:** *Bağda (2-ci dərs)*

**Təlim məqsədləri:** 1. Şagird şəkildə gördüyü meyvələri və meyvə ağaclarını tanıyır və adlandırır.

2. Şəklə əsasən cümlə qurur.

| Dərsin tipi | İş forması | Metodlar | İnteqrasiya | Resurslar |
|---|---|---|---|---|
| İnduktiv | Fərdi iş, Böyük qruplarla iş | Beyin həmləsi, diskussiya, müzakirə | Nitq inkişafı, həyat bilgisi, riyaziyyat | Dərslik, üzərində meyvə ağaclarının şəkilləri olan, kartlar, oyuncaq meyvələr və ya onların maketləri |

**Motivasiya**

Müəllim şagirdlərin fikrini dərsə yönəltmək məqsədi ilə üzərində alma olan ağac şəklini göstərərək sual verir:

– Uşaqlar, şəkildə gördüyünüz nədir? (alma ağacı).

– Alma meyvədir və o ağacda bitir.

Müəllim dərslikdəki “Bağda” mövzusunda olan şəkli şagirdlərə göstərərək, meyvə ağaclarının adlarını deyir, onlara bağda aparılan işlər haqqında məlumat verir.

***Tədqiqat sualı.***

**1.** Şəkildə hansı meyvə ağacları təsvir olunub? (alma, armud).

**2.** Bağda kimlər var? (oğlanlar və qızlar).

**3.** Uşaqlar nə edirlər? (Meyvə dərir, onları səbətə yığır, meyvə səbətlərini yük maşınına yükləyirlər)

**4.** Bağda hansı meyvə ağaclarını görürsünüz? (alma, armud).

***Tədqiqat aparılması.*** Müəllim şəkillərə əsasən meyvə ağaclarını tapmağı xahiş edir.

**Tətbiqetmə.** *Tapşırıq: 2, 3, 4 (səh. 15)*

**Qiymətləndirmə.** Müşahidə əsasında aparılır.

LAYİHƏ

**Mövzu:** *Dirrikdə (Mövzu: 6-nın 2-ci dərsi)*

**Təlim məqsədləri:** 1. Şagirdlər tərəvəzləri tanıyır, adlandırır və harada bitdiyini bilir. başa düşür, dirrikdə nələrin yetişdiyini bilirlər.

2. Şəklə əsasən cümlə qurur.

| Dərsin tipi | İş forması | Metodlar | İnteqrasiya | Resurslar |
|---|---|---|---|---|
| İnduktiv | Fərdi iş, Böyük qruplarla iş | Beyin həmləsi, diskussiya, müzakirə | Nitq inkişafı, həyat bilgisi, riyaziyyat | Dərslik, üzərində dirriyin təsvir olunduğu şəkil, tərəvəz oyuncaqları və ya maketləri |

**Motivasiya**

Müəllim şagirdlərin fikrini mövzuya yönəltmək məqsədi ilə onlara dirrikdə təsvir olunan tərəvəz şəkillərini göstərərək sual verir:

– Uşaqlar, şəkildə gördüyünüz nədir? (kök, turp, kələm)

Müəllim dərslikdəki "Dirrikdə" mətnində olan şəkli şagirdlərə göstərərək, tərəvəzləri adlandırır və onların harada yetişdiyi barədə məlumat verir.

***Tədqiqat sualı.*** Şəklə əsasən tərəvəzlərin adını söyləyin.

***Tədqiqat aparılması.*** Şəklə əsasən suallar verir.

**1.** Dirrikdə kim var? (baba)

**2.** Baba nə edir? (Dirriyi sulayır.)

**3.** Dirrikdə hansı tərəvəzləri görürsünüz? (kök, turp, kələm)

**Tətbiqetmə.** *Tapşırıq: 2, 3, 4 (səh. 17)*

**Qiymətləndirmə.** Müşahidə əsasında aparılır.

LAYİHƏ

## **Mövzu: 7.** *"Turp" nağılı.*

**Təlim məqsədləri:** 1. Şagirdlər nağılı şəkil üzrə danışır.
2. Şəklə əsasən cümlə qurur.

| Dərsin tipi | İş forması | Metodlar | İnteqrasiya | Resurslar |
|---|---|---|---|---|
| İnduktiv | Fərdi iş, Böyük qruplarla iş | Beyin həmləsi, diskussiya, müzakirə | Nitq inkişafı, həyat bilgisi, riyaziyyat | Dərslik, "Turp" nağılını əks etdirən şəkillər |

### **Motivasiya**

Müəllim şagirdlərin fikrini dərsə yönəltmək məqsədi ilə onlara turp şəklini göstərərək sual verir:

– Uşaqlar, şəkildə gördüyünüz nədir? (turp)

Müəllim dərslikdəki “Turp” nağılını əks etdirən şəkli şagirdlərə nümayiş etdirir və nağılı onlara danışır.

***Tədqiqat sualı.*** Baba nə üçün turpu çıxara bilmədi?

***Tədqiqat aparılması.*** Şəklə əsasən suallar verir.

**1.** Baba dirrikdə nə əkmişdi? (turp)

**2.** Baba nənəni nə üçün köməyə çağırdı? (turpu çıxartmağa gücü çatmadığı üçün)

**3.** Nağılda hansı heyvanlar var idi? (it, pişik, siçan)

**Tətbiqetmə.** *Tapşırıq: 2 (səh. 18); 1, 2, 3, 4 (səh. 19)*

**Qiymətləndirmə.** Müşahidə əsasında aparılır.

LAYİHƏ

## **Mövzu: 8.** *Heyvanlar, (ev heyvanları, vəhşi heyvanlar )*

**Təlim məqsədləri:** 1. Şagirdlər heyvan adlarını bilir.
2. Ev və vəhşi heyvanları fərqləndirir.

| Dərsin tipi | İş forması | Metodlar | İnteqrasiya | Resurslar |
|---|---|---|---|---|
| İnduktiv | Fərdi iş, Böyük qruplarla iş | Beyin həmləsi, diskussiya, müzakirə | Nitq inkişafı, həyat bilgisi, riyaziyyat | Dərslik, ev və vəhşi heyvanların şəkli olan kartlar, oyuncaqlar |

### Motivasiya

Müəllim şagirdlərin fikrini dərsə yönəltmək məqsədi ilə onlara ev və vəhşi heyvanların şəkillərini göstərir sual verir:

– Uşaqlar, şəkildə hansı heyvanlar təsvir olunub? (Uşaqlar tanıdıqları heyvanların adlarını söyləyirlər)

Müəllim dərslikdəki ev və vəhşi heyvanların şəkillərini şagirdlərə göstərir və onlar haqqında qısa məlumat verir.

***Tədqiqat sualı.*** Adlarını sadaladığım heyvanlar harada yaşayır?

***Tədqiqat aparılması.*** Şəkildə təsvir olunan heyvanları adlandırmağı və harada yaşadığını söyləməyi xahiş edir.

**1.** Hansı ev heyvanlarını tanıyırsınız? (at, it, pişik, qoyun, inək, keçi, toyuq, cücə, xoruz)

**2.** Ev (vəhşi) heyvanları harada yaşayır? (evdə, meşədə)

**3.** Hansı vəhşi heyvanları tanıyırsınız? (tülkü, dovşan, canavar, ayı, maral, fil, kirpi, şir, zürafə, meymun, ilan)

**4.** Bu heyvanların fərqi nədir? (ev heyvanları insan məskənlərində yaşayır, onlara xeyir verir. Vəhşi heyvanlar isə meşədə yaşayır)

**5.** Vəhşi heyvanlar harada yaşayır? (meşədə, çöldə....)

**Tətbiqetmə:** *Tapşırıq: Ev heyvanları 2, 3 (səh. 20) vəhşi heyvanlar 2, 3, 4 (səh. 21)*

**Qiymətləndirmə.** Müşahidə əsasında aparılır.

LAYİHƏ

## Mövzu: 9. *Quşlar (ev quşları, çöl quşları).*

**Təlim məqsədləri:** 1. Şagirdlər quşları tanıyır və adlandırır.
2. Ev və çöl quşlarını fərqləndirir.

| Dərsin tipi | İş forması | Metodlar | İnteqrasiya | Resurslar |
|---|---|---|---|---|
| İnduktiv | Fərdi iş, Böyük qruplarla iş | Beyin həmləsi, diskussiya, müzakirə | Nitq inkişafı, həyat bilgisi, riyaziyyat | Dərslik, quşları əks etdirən şəkillər, quş növlərinin maketləri və ya oyuncaqları |

**Motivasiya**

Müəllim şagirdlərə göyərçin, sərçə, toyuq şəkillərini göstərərək, onların fikrini dərsə yönəltmək məqsədi ilə sual verir:

– Uşaqlar, şəkildə gördükləriniz nədir? (quşlar)

Müəllim dərslikdəki quşlar mətnində olan şəkilləri şagirdlərə göstərərək onların adlarını deyir və ev quşları, çöl quşları qrupuna görə fərqləndirir.

***Tədqiqat sualı.*** Şəkildə təsvir olunan quşları bir sözlə necə ifadə etmək olar?

***Tədqiqat aparılması.*** Şəklə əsasən suallar verir.

1. Ev quşları harada yaşayır? (ev, həyətdə).
2. Çöl quşları harada yaşayır? (çöldə).
3. Köçəri quşlar hansılardır? (qaranquş, durna, leylək, sığırçın).
4. Qışlayan quşlar hansılardır? (sərçə, sağsağan, göyərçin, ağacdələn).
5. Yırtıcı quşlar hansılardır? (qartal, bayquş, şahin).
6. Bunları birlikdə necə adlandırmaq olar? (quşlar).

**Tətbiqetmə.** *Tapşırıq: 2 (səh. 22) tapşırıq 2, 3  (səh. 23)*

**Qiymətləndirmə.** Müşahidə əsasında aparılır.

LAYİHƏ

## Mövzu: 10. *Bədən üzvləri (4 saat)*

**Təlim məqsədi:** Uşaqlar bədən üzvlərini tanıyır, onların adlarını bilir, fəaliyyətlərinin nədən ibarət olduğu haqqında məlumat verirlər.

| Dərsin tipi | İş forması | Metodlar | İnteqrasiya | Resurslar |
|---|---|---|---|---|
| İnduktiv | Fərdi iş, Böyük qruplarla iş | Beyin həmləsi, diskussiya, müzakirə | Nitq inkişafı, həyat bilgisi, riyaziyyat | Dərslik, uzərində bədən üzvlərinin şəkilləri olan kartlar, insan maketi |

**Motivasiya**

Müəllim üzərində bədən üzvlərinin şəkilləri olan kartları lövhədən asır və şagirdlərin fikrini dərsə cəlb etmək məqsədi ilə sual verir:

– Şəkildə hansı bədən üzvləri təsvir olunub? (əl, ayaq və s. cavabları verilir).

– Bunlar bədən üzvlərimiz adlanır.

***Tədqiqat sualı.*** 1. Bədən üzvlərimizdən necə istifadə edirik?

2. Uşaqlar, biz əlimizlə, ayaqlarımızla nə edirik?

Şəkildə təsvir olunmuş oğlanın bədən üzvlərini adlandırın.

Şagirdlər verilən suala cavab verdikdən sonra müəllim dərslikdəki oğlan şəklini şagirdlərə göstərir və onun bədən üzvlərinin adını söyləyir.

***Tədqiqat aparılması.*** Şəklə əsasən suallar verir.

**1.** Şəkildə hansı bədən üzvlərinizi gördünüz? (baş, qol, ayaq, qarın, boğaz, göz, burun, əl)

**2.** Oğlanın neçə qulağı var? (iki)

**3.** Hansı bədən üzvü vasitəsi ilə yeriyirlər? (ayaq)

**4.** Biz hansı bədən üzvümüz vasitəsi ilə eşidirik? (qulaq)

**Tətbiqetmə.** *Tapşırıq: 2, 3, 4 (səh. 26) "Təmizlik" şeiri. (səh 27)*

**Qiymətləndirmə.** Müşahidə əsasında aparılır.

LAYİHƏ

## **Mövzu: 11.** *Duyğu orqanları (2 saat)*

**Təlim məqsədi:** Uşaqlar duyğu orqanlarını tanıyır, onların adlarını bilir, fəaliyyətlərinin nədən ibarət olduğu haqqında məlumat verirlər.

| Dərsin tipi | İş forması | Metodlar | İnteqrasiya | Resurslar |
|---|---|---|---|---|
| İnduktiv | Fərdi iş, Böyük qruplarla iş | Beyin həmləsi, diskussiya, müzakirə | Nitq inkişafı, həyat bilgisi, riyaziyyat | Dərslik, duyğu orqanlarının şəkli olan kartlar, maketlər |

### Motivasiya

Müəllim şagirdlərin fikrini dərsə cəlb etmək məqsədi ilə üzərində duyğu orqanlarının şəkli olan kartları lövhədən asır və onlara sual verir:

– Uşaqlar, siz hansı duyğu orqanı vasitəsi ilə görürsünüz? (göz)

Şagirdlər verilən sualı cavablandırdıqdan sonra müəllim dərslikdəki duyğu orqanlarının şəklini onlara göstərir və hər duyğu orqanının funksiyası haqqında qısa məlumat verir.

***Tədqiqat sualı.*** Müəllim eşitmə, görmə, dadbilmə, toxunma və iybilmə orqanlarının fəaliyyətini söyləməyi xahiş edir.

***Tədqiqat aparılması.*** Şəklə əsasən suallar verir.

1. Hansı duyğu orqanımız vasitəsi ilə iyləri, ətirləri bilirik? (burun)
2. Hansı duyğu orqanımız vasitəsi ilə toxunuruq? (əl)
3. Hansı duyğu orqanımız vasitəsi ilə eşidirik? (qulaq)
4. Hansı duyğu orqanımız vasitəsi ilə dad bilirik? (dil)
5. Hansı duyğu orqanımız vasitəsi ilə görürük? (göz)

**Tətbiqetmə.** *Tapşırıq: 1, 2, 3, 4 (səh. 29)*

**Qiymətləndirmə.** Müşahidə əsasında aparılır.

LAYİHƏ

## Mövzu: 12. *“Tıq-tıq xanım” nağılı*

**Təlim məqsədləri:** 1. Şagirdlər nağılı şəkil üzrə danışır.
2. Süjetlərin ardıcıllığını şəklə əsasən söyləyir.

| Dərsin tipi | İş forması | Metodlar | İnteqrasiya | Resurslar |
|---|---|---|---|---|
| İnduktiv | Fərdi iş, Böyük qruplarla iş | Beyin həmləsi, diskussiya, müzakirə | Nitq inkişafı, həyat bilgisi, riyaziyyat | Dərslik, «Tıq-tıq xanım» nağılını əks etdirən şəkillər |

### Motivasiya

Müəllim şagirdlərin fikrini dərsə yönəltmək məqsədi ilə onlara Tıq-tıq xanımın şəklini göstərərək sual verir:

– Uşaqlar, şəkildə gördüyünüz kimdir? (Tıq-tıq xanım).

Müəllim dərslikdəki “Tıq-tıq xanım” nağılını əks etdirən şəkli şagirdlərə göstərərək nağılı onlara danışır.

***Tədqiqat sualı.*** Tıq-tıq xanım nə üçün siçanla dost olmağa razı oldu?

***Tədqiqat aparılması.*** Müəllim nağıla əsasən suallar verir.

**1.** Tıq-tıq xanım yolda ilk dəfə kiminlə rastlaşır? (çoban)

**2.** Tıq-tıq xanım yolda hansı heyvanlarla rastlaşır? (tülkü, kirpi, siçan)

**3.** Tıq-tıq xanım Siçandan niyə küsür? (Siçan Tıq-tıq xanımın köməyinə vaxtında çatmadığı üçün).

**Tətbiqetmə.** *Tapşırıq: 2 (səh. 30); tapşırıq 1, 2, 3, 4, 5 (səh. 31)*

**Qiymətləndirmə.** Müşahidə əsasında aparılır.

LAYİHƏ

## **Mövzu: 13.** *Peşələr*

**Təlim məqsədi:** Şagirdlər peşələrin adını tanıyır, hansı peşə sahibinin nə işlə məşğul olduğunu və onların hansı alətlərdən istifadə etdiyini bilir.

| Dərsin tipi | İş forması | Metodlar | İnteqrasiya | Resurslar |
|---|---|---|---|---|
| İnduktiv | Fərdi iş, Böyük qruplarla iş | Beyin həmləsi, diskussiya, müzakirə | Nitq inkişafı, həyat bilgisi, riyaziyyat | Dərslik, uzərində peşə şəkilləri olan kartlar, maketlər və ya oyuncaqlar |

**Motivasiya**

Müəllim şagirdlərin fikrini dərsə cəlb etmək məqsədi ilə üzərində həkim şəkli olan kartı göstərir və onlara sual verir:

– Uşaqlar, şəkildə gördüyünüz kimdir? (həkim)

Müəllim dərslikdəki digər peşə sahiblərinin şəkillərini şagirdlərə göstərir, onların adlarını deyir və hansı işlə məşğul olduqları barədə qısa məlumat verir.

***Tədqiqat sualı.*** Şəklə əsasən peşə sahiblərinin nə ilə məşğul olduğunu və hansı alətlərdən istifadə etdiyini söyləyin.

***Tədqiqat aparılması.*** Şəklə əsasən suallar verilir.

1. Həkim nə işlə məşğul olur? (xəstələri müayinə və müalicə edir)
2. Müəllimin vəzifəsi nədir? (şagirdlərə dərs izah edir)
3. Rəssamın peşə alətləri hansılardır? (boya, firça)
4. Dərzi nə ilə paltar tikir? (tikiş maşını)
5. Aşpaz nə işlə məşğul olur? (yemək bişirir)

**Tətbiqetmə.** *Tapşırıq: 1, 2, 3, 4 (səh. 33)*

**Qiymətləndirmə.** Müşahidə əsasında aparılır.

LAYİHƏ

## **Mövzu: 14.** *Yol hərəkəti qaydaları (2 saat)*

**Təlim məqsədi:** Şagird yol hərəkəti qaydalarını bilir.

| Dərsin tipi | İş forması | Metodlar | İnteqrasiya | Resurslar |
|---|---|---|---|---|
| İnduktiv | Fərdi iş, Böyük qruplarla iş | Beyin həmləsi, diskussiya, müzakirə | Nitq inkişafı, həyat bilgisi, riyaziyyat | Dərslik, uzərində yol hərəkəti qaydaları şəkilləri olan kartlar, maketlər və ya oyuncaqlar |

### Motivasiya

Müəllim şagirdlərin fikrini dərsə cəlb etmək məqsədi ilə onlara işıqfor şəklini göstərir və sual verir:

– Uşaqlar, bu nədir? (işıqfor)

Sualın cavabını bilən şagirdlər şəkli adlandırdıqdan sonra müəllim dərslikdəki yol hərərkəti qaydalarını təsvir edən şəkilləri şagirdlərə göstərir və onlardan istifadə qaydalarını izah edir.

***Tədqiqat sualı.*** Yol hərəkəti qaydaları nə üçündür?

***Tədqiqat aparılması.*** Şəklə əsasən suallar verilir.

**1.** Yeraltı keçid nə üçündür? (yolu təhlükəsiz keçmək üçün)

**2.** İşıqfor nə üçün istifadə olunur? (yol qəzalarının baş verməməsi üçün)

**3.** İşıqforda neçə rəng var? (üç)

**4.** İşıqforda hansı rənglər var? (yaşıl, qırmızı, sarı)

**Tətbiqetmə.** *Tapşırıq: 2, 3, 4 (səh. 34)*

**Qiymətləndirmə.** Müşahidə əsasında aparılır.

LAYİHƏ

## **Mövzu:** *Küçədə (2 saat)*

**Təlim məqsədi:** Şagirdlər yol hərəkəti qaydalarını bilir və nişanlarını tanıyırlar.

| Dərsin tipi | İş forması | Metodlar | İnteqrasiya | Resurslar |
|---|---|---|---|---|
| Diduktiv | Fərdi iş, Böyük qruplarla iş | Beyin həmləsi, diskussiya, müzakirə | Nitq inkişafı, həyat bilgisi, riyaziyyat | Dərslik, üzərində yol hərəkəti qaydaları və nişanlar əks olunan küçə şəkli |

### Motivasiya

Müəllim şagirdlərin fikrini dərsə yönəltmək məqsədi ilə lövhəyə işıqforun yanında dayanan ana və uşaq şəklini göstərərək sual verir:

– Ana və uşaq işıqforun qırmızı işığında nə üçün dayanıblar? (küçədə piyada keçidinin yanında)

Müəllim dərslikdəki küçə şəklindən istifadə edərək, yol hərəkəti qaydaları haqqında şagirdlərə geniş məlumat verir.

***Tədqiqat sualı.*** Yol nişanları nə üçündür?

***Tədqiqat aparılması.*** Şəklə əsasən suallar verir.

**1.** Uşaqlar, şəkildə hara təsvir olunub? (küçə)

**2.** Küçədə kimlər var? (adamlar)

**3.** Küçədə daha nə görürsünüz? (maşınlar, ağaclar, binalar, işıqfor)

**4.** Ana və uşaq şəkildə nə edir? (piyada keçidindən keçirlər)

**5.** İşıqfor nə üçündür?

**6.** Yeraltı və yerüstü piyada keçidi nə üçündür?

**Tətbiqetmə.** *Tapşırıq: 2 (səh. 35)*

**Qiymətləndirmə.** Müşahidə əsasında aparılır.

LAYİHƏ

## Mövzu: 15. *Nəqliyyat vasitələri*

**Təlim məqsədi:** Uşaqlar nəqliyyat vasitələrini tanıyır və onları adlandırır. Nəqliyyat növlərini qruplaşdırır və fərqləndirir.

| Dərsin tipi | İş forması | Metodlar | İnteqrasiya | Resurslar |
|---|---|---|---|---|
| İnduktiv | Fərdi iş, Böyük qruplarla iş | Beyin həmləsi, diskussiya, müzakirə | Nitq inkişafı, həyat bilgisi, riyaziyyat | Dərslik, uzərində nəqliyyat vasitələrinin şəkilləri olan kartlar, maketlər və ya oyuncaqlar |

### Motivasiya

Müəllim üzərində nəqliyyat vasitələrinin şəkilləri olan kartları lövhədən asır və şagirdlərin fikrini dərsə cəlb etmək məqsədi ilə sual verir:

– Uşaqlar, siz ən çox hansı nəqliyyat vasitəsindən istifadə edirsiniz? (maşın, metro, avtobus).

Şagirdlər verilən sualı cavablandırdıqdan sonra müəllim dərslikdəki nəqliyyat vasitələrinin şəkillərini onlara göstərir, adlarını deyir və onların növləri barədə məlumat verir.

***Tədqiqat sualı.*** Hansı nəqliyyat növləri var?

***Tədqiqat aparılması.*** Şəklə əsasən suallar verir.

**1.** Minik, yük avtomobilləri harada gedir? (yolda)
**2.** Qatar, metro nəyin üzərində hərəkət edir? (dəmir yol)
**3.** Gəmi, qayıq, kater harada üzür? (suda)
**4.** Təyyarə, helikopter harada uçur? (havada)

**Tətbiqetmə.** *Tapşırıq: 2 (səh. 36); tapşırıq 1, 2, 3, 4 (səh. 37)*

**Qiymətləndirmə.** Müşahidə əsasında aparılır.

LAYİHƏ

## Mövzu: 16. *Günün hissələri (3 saat)* (Mövzu 17 *Fəsillər) (3 saat)*

**Təlim məqsədləri:** 1. Şagirdlər günün hissələrini (fəsilləri) tanıyır və adlandırır.
2. Onları fərqləndirir.

| Dərsin tipi | İş forması | Metodlar | İnteqrasiya | Resurslar |
|---|---|---|---|---|
| İnduktiv | Fərdi iş, Böyük qruplarla iş | Beyin həmləsi, diskussiya, müzakirə | Nitq inkişafı, həyat bilgisi, riyaziyyat | Dərslik, günün hissələrini əks etdirən şəkillər |

**Motivasiya**

Müəllim lövhədən səhər yuxudan oyanan uşaq (qar topası ilə oynayan uşaqlar) şəkli asır və şagirdlərə sual verir:

– Uşaqlar, siz nə zaman yuxudan oyanırsız? (Siz nə zaman qar topu oynayırsınız?) (Hər şagird öz cavabını verir).

Sualın cavabını aldıqdan sonra müəllim günün hissələrini (fəsillər) şəkillər üzərində şagirdlərə izah edir.

***Tədqiqat sualı.*** Günün hansı hissələri var? (İlin hansı fəsilləri var?)

***Tədqiqat aparılması.*** Şəklə əsasən suallar verir.

1. Günün neçə hissəsi var (ilin neçə fəsli var)?
2. Günün hissələrinin adlarını bilirsinizmi (ilin fəsillərinin adlarını bilirsinizmi)?
3. Səhər nə edirsiniz (qar hansı fəsildə yağır)?
4. Günorta nə edirsiniz (ağaclar hansı fəsildə çiçək açır)?
5. Axşam nə edirsiniz (yarpaqlar nə zaman saralıb tökülür)?
6. Gecə nə edirsiniz (yayda hava necə olur)?

(Hər şagird öz cavabını verir).

**Tətbiqetmə.** *Tapşırıq: 2, 3, 4, 5 (səh. 38, 39, 41, 42)*

**Qiymətləndirmə.** Müşahidə əsasında aparılır.

LAYİHƏ

## Mövzu: 18. *“Tülkü və Leylək” (3 saat)*

**Təlim məqsədləri:** 1. Şagirdlər nağılı şəkil üzrə danışırlar.
2. Süjet ardıcıllığını şəklə əsasən söyləyir.

| Dərsin tipi | İş forması | Metodlar | İnteqrasiya | Resurslar |
|---|---|---|---|---|
| İnduktiv | Fərdi iş, Böyük qruplarla iş | Beyin həmləsi, diskussiya, müzakirə | Nitq inkişafı, həyat bilgisi, riyaziyyat | Dərslik, nağılı əks etdirən şəkillər, tülkü, leylək oyuncaqları və ya maketlər, küp və boşqab |

**Motivasiya**

Müəllim şagirdlərin fikrini mövzuya yönəltmək məqsədi ilə sual verir:

– Uşaqlar, şəkildə hansı heyvanları görürsünüz? (boşqab, küp).

Müəllim dərslikdəki “Tülkü və Leylək” nağılındakı şəkillərdən istifadə edərək nağılı danışır.

***Tədqiqat sualı.*** Nə üçün Tülkü ilə Leylək dost ola bilmədilər?

***Tədqiqat aparılması.*** Şəklə əsasən suallar verir.

**1.** Şəkildə hara təsvir olunub? (meşə)

**2.** Nağılda hansı heyvanlar var? (tülkü və leylək)

**3.** Tülkü Leyləyə yeməyi hansı qabda verdi? (boşqabda)

**4.** Leylək tülküyə yeməyi nə üçün küpdə verdi? (yeməyi yeyə bilməsin deyə)

**Tətbiqetmə.** *Tapşırıq: 1, 2, 3, 4 (səh. 45)*

**Qiymətləndirmə.** Müşahidə əsasında aparılır.

LAYİHƏ

## **Mövzu: 19.** *Mebel əşyaları (1-ci saat)*

**Təlim məqsədləri:** 1. Şagirdlər mebel əşyalarını tanıyır və adlandırır.
2. Mebel əşyalarının təyinatını bilir.

| Dərsin tipi | İş forması | Metodlar | İnteqrasiya | Resurslar |
|---|---|---|---|---|
| İnduktiv | Fərdi iş, Böyük qruplarla iş | Beyin həmləsi, diskussiya, müzakirə | Nitq inkişafı, həyat bilgisi, riyaziyyat | Dərslik, mebel əşyalarını əks etdirən şəkillər, maketlər və ya oyuncaqlar |

**Motivasiya**

Müəllim lövhəyə asdığı mebel əşyalarının şəkillərini göstərərək şagirdlərə müraciət edir və onların fikrini mövzuya cəlb etmək məqsədi ilə sual verir:

− Uşaqlar, siz ən çox hansı mebel əşyalarından istifadə edirsiniz? (Hər şagird öz cavabını verir).

Müəllim şagirdlərdən cavab aldıqdan sonra dərslikdəki mebel əşyalarının şəkillərini onlara göstərərək adlarını deyir və hansı mebel əşyasından nə üçün istifadə olunduğu barədə məlumat verir.

***Tədqiqat sualı.*** Şəkildə gördüyünüz mebel əşyalarından necə istifadə olunur?

***Tədqiqat aparılması.*** Şəklə əsasən suallar verir.

**1.** Hansı mebel əşyalarını tanıyırsınız? (divan, kreslo, paltar dolabı, çarpayı, stol, stul)
**2.** Yataq otağında hansı mebel əşyaları var?
**3.** Qonaq otağında hansı mebel əşyaları var?
**4.** Sinif otağında hansı mebel əşyaları var?

**Tətbiqetmə.** *Tapşırıq: 2 (səh. 48)*

**Qiymətləndirmə.** Müşahidə əsasında aparılır.

LAYİHƏ

**Mövzu:** *Otaqda (19-cu mövzunun 2-ci saatı)*

**Təlim məqsədləri:** 1. Şagird şəklə əsasən cümlə qurur.
2. Mebel əşyalarını növünə görə fərqləndirir.

| Dərsin tipi | İş forması | Metodlar | İnteqrasiya | Resurslar |
|---|---|---|---|---|
| İnduktiv | Fərdi iş, Böyük qruplarla iş | Beyin həmləsi, diskussiya, müzakirə | Nitq inkişafı, həyat bilgisi, riyaziyyat | Dərslik, mebel əşyaları ilə zəngin otaq rəsmi, oyuncaq mebel əşyaları və ya maketlər |

**Motivasiya**

Müəllim lövhəyə otaq şəkli asır və şagirdlərin fikrini dərsə yönəltmək məqsədi ilə sual verir:

– Uşaqlar, şəkildə nə görürsünüz? (otaq)

Müəllim dərslikdəki "Otaqda" mövzusunda olan şəkildən istifadə edərək "Mebel əşyaları" mövzusunu möhkəmləndirir.

***Tədqiqat sualı.*** Şəkildə hansı növ mebellər təsvir olunub?

***Tədqiqat aparılması.*** Şəklə əsasən suallar verir.

**1.** Şəkildə gördüyünüz nədir? (otaq)
**2.** Otaqda nələr görürsünüz? (divan, kreslo, stol, stul, kitab rəfi)
**3.** Divan və kreslo nə üçündür? (oturmaq üçün)
**4.** Kitab rəfindən nə üçün istifadə edirik? (içərisinə kitabları yığırıq)

**Tətbiqetmə.** *Tapşırıq: 2, 3, 4 (səh. 49)*

**Qiymətləndirmə.** Müşahidə əsasında aparılır.

LAYİHƏ

## **Mövzu: 20.** *Geyimlər (2 saat)*

**Təlim məqsədləri:**1. Uşaqlar geyim əşyalarını tanıyır, onları adlandırır.
2. Mövsümə uyğun geyim növlərini ayırd edir.

| Dərsin tipi | İş forması | Metodlar | İnteqrasiya | Resurslar |
|---|---|---|---|---|
| İnduktiv | Fərdi iş, Böyük qruplarla iş | Beyin həmləsi, diskussiya, müzakirə | Nitq inkişafı, həyat bilgisi, riyaziyyat | Dərslik, geyim əşyalarını əks etdirən şəkillər, oyuncaqlar |

**Motivasiya**

Müəllim lövhəyə asılmış geyim əşyaları şəkillərini göstərərək şagirdlərə müraciət edir və onların fikrini mövzuya cəlb etmək məqsədi ilə sual verir:

– Şəkildə gördüyünüz geyim əşyalarından hansılar sizdə var?

Şagirdlər sualı cavablandırdıqdan sonra müəllim dərslikdəki geyim əşyaları şəkillərini onlara göstərir, adlarını deyir və geyim əşyalarını fəsillərə görə qruplaşdırır.

***Tədqiqat sualı.*** Hansı geyim əşyalarını tanıyırsan?

***Tədqiqat aparılması.*** Şəklə əsasən suallar verir.

**1.** Biz yaz fəslində nə geyinirik? (köynək, şalvar, pencək)
**2.** Biz yay fəslində nə geyinirik? (qısaqol köynək, qısa şalvar)
**3.** Bəs payız fəslində nə geyinirik? (plaş və ya gödəkcə, uzunqol köynək, şalvar)
**4.** Papaq, əlcək və şərfi hansı fəsildə geyinirik? (qışda)

**Tətbiqetmə.** *Tapşırıq: 2 (səh. 50) 2, 3, 4 (səh. 51)*

**Qiymətləndirmə.** Müşahidə əsasında aparılır.

LAYİHƏ

## **Mövzu: 21.** *Dövlət rəmzləri (Vətənim) (4 saat)*

**Təlim məqsədləri:** 1. Dövlət rəmzlərini tanıyır və adlandırır.
2. Yaşadığı ölkələri, şəhərləri tanıyır və adlandırır.

| Dərsin tipi | İş forması | Metodlar | İnteqrasiya | Resurslar |
|---|---|---|---|---|
| İnduktiv | Fərdi iş, Böyük qruplarla iş | Beyin həmləsi, diskussiya, müzakirə | Nitq inkişafı, həyat bilgisi, riyaziyyat, tarix | Dərslik, tarixi abidələr, bayraq, Azərbaycanın dövlət rəmzlərinin şəkilləri, Azərbaycan xəritəsi |

### Motivasiya

Müəllim Azərbaycan bayrağını göstərərək sual verir:
– Bu nədir? (Bayraq).
Şagirdlər verilən sualı cavablandırdıqdan sonra müəllim dərslikdəki dövlət rəmzləri (tarixi abidələr, Qız qalası, Şirvanşahlar sarayının şəkillərini uşaqlara göstərir) haqqında məlumat verir.

***Tədqiqat sualı.*** Hansı dövlət rəmzlərini tanıyırsan?

***Tədqiqat aparılması.*** Dövlət rəmzlərinin şəkillərini göstərir və onlara dair suallar verir.

**1.** Hansı tarixi abidələri tanıyırsınız? (Qız qalası, Şirvanşahlar sarayı)
**2.** Bayrağımızda neçə rəng var? (üç)
**3.** Bayrağımızda hansı rənglər var? (mavi, qırmızı, yaşıl)
**4.** Azərbaycanın gerbində nələr əks olunub? (palıd, sünbül, səkkizguşəli ulduz, alov, Azərbaycan bayrağının rəngləri)

*Abdulla Şaiqin "Vətənim" şeiri əzbər öyrədilir.*

**Tətbiqetmə.** *Tapşırıq: Dövlət rəmzlərimiz, tapşırıq 2 (səh. 52)*
*Vətənim ("Ana yurdum" şeri) (səh. 53),*

**Qiymətləndirmə.** Müşahidə əsasında aparılır.

LAYİHƏ

## **Mövzu: 22.** *Mağazada (2 saat)*

**Təlim məqsədləri:** 1. Şagirdlər mağaza anlayışını dərk edir.

2. Mağazada nələrin satıldığını bilir və onları qruplaşdırır. Rollara uyğun təlimatları yerinə yetirir. (satıcı, alıcı, kassir)

3. Şəklə əsasən cümlə qurur.

| Dərsin tipi | İş forması | Metodlar | İnteqrasiya | Resurslar |
|---|---|---|---|---|
| İnduktiv | Fərdi iş, Böyük qruplarla iş | Beyin həmləsi, diskussiya, müzakirə | Nitq inkişafı, həyat bilgisi, riyaziyyat | Dərslik, marketdə satılan ərzaq məhsullarının şəkilləri olan kartlar, maket və ya oyuncaqlar |

**Motivasiya**

Müəllim üzərində ərzaq məhsullarının şəkilləri olan kartları şagirdlərə göstərir və şagirdlərin fikrini mövzuya yönəltmək məqsədilə sual verir:

– Uşaqlar, gördüyünüz ərzaq məhsullarını haradan almaq olar? (Şagirdlər öz sevdikləri ərzaq məhsullarının adlarını deyirlər).

Müəllim dərslikdəki mağaza şəkillərini şagirdlərə göstərir, mağazada satılan ərzaq məhsullarını sadalayır, *alıcı, satıcı, kassir* anlayışlarını izah edir və onlar haqqında qısa məlumat verir.

***Tədqiqat sualı.*** Mağazaya nə üçün gedirik?

***Tədqiqat aparılması.*** Şəklə əsasən suallar verir.

**1.** Şəkildə hara təsvir olunub? (mağaza)

**2.** Mağazada kimlər var? (alıcılar, satıcı, kassir)

**3.** Mağazada nələr satılır? (ərzaq məhsulları)

**4.** Satıcı nə edir? (mağazadakı məhsulları satır)

**5.** Alıcı nə edir? (mağazadakı məhsulları alır)

**Tətbiqetmə.** *Tapşırıq: (2 səh. 54); tapşırıq 1, 2, 3, 4 (səh. 55)*

**Qiymətləndirmə.** Müşahidə əsasında aparılır.

LAYİHƏ

## **Mövzu: 23.** *Mətbəx əşyaları (2 saat)*

**Təlim məqsədləri:** 1. Şagirdlər mətbəx əşyalarını tanıyır və adlandırır.
2. Mətbəx əşyalarının təyinatını bilir və qruplaşdırır.

| Dərsin tipi | İş forması | Metodlar | İnteqrasiya | Resurslar |
|---|---|---|---|---|
| İnduktiv | Fərdi iş, Böyük qruplarla iş | Beyin həmləsi, diskusiya, müzakirə | Nitq inkişafı, həyat bilgisi, riyaziyyat | Dərslik, uzərində mətbəx əşyalarının şəkli olan kartlar, maket və ya oyuncaqlar |

### Motivasiya

Müəllim üzərində qazan şəkli olan kartı lövhədən asır və şagirdlərin fikrini dərsə cəlb etmək məqsədi ilə sual verir:

– Uşaqlar, şəkildə gördüyünüz mətbəx əşyasının adı nədir? (qazan)

Şagirdlər verilən sualı cavablandırdıqdan sonra müəllim dərslikdəki mətbəxt əşyalarının şəkillərini onlara göstərir, adlarını deyir və onların nə üçün istifadə olunduğu barədə məlumat verir.

***Tədqiqat sualı.*** Mətbəx əşyalarından necə istifadə olunur?

***Tədqiqat aparılması.*** Şəklə əsasən suallar verilir.

1. Hansı mətbəx əşyasında xörək bişirilir? (qazan)
2. Hansı mətbəx əşyasında su içilir? (stəkan)
3. Hansı mətbəx əşyası ilə yemək yeyilir? (çəngəl, qaşıq)

**Tətbiqetmə:** *Tapşırıq: 2, 3, 4 (səh. 56) 1, 2, 3 (səh. 57)*

**Qiymətləndirmə:** Müşahidə əsasında aparılır.

LAYİHƏ

## **Mövzu: 24.** *Elektrik avadanlıqları (2 saat)*

**Təlim məqsədləri:** 1. Şagirdlər elektrik əşyalarını tanıyır və adlandırır.
2. Onlardan nə məqsədlə istifadə edildiyini bilir və qruplaşdırır.

| Dərsin tipi | İş forması | Metodlar | İnteqrasiya | Resurslar |
|---|---|---|---|---|
| İnduktiv | Fərdi iş, Böyük qruplarla iş | Beyin həmləsi, diskussiya, müzakirə | Nitq inkişafı, həyat bilgisi, riyaziyyat | Dərslik, üzərində elektrik əşyalarının şəkilləri olan kartlar, elektrik əşyalarının oyuncaqları və ya maketlər |

**Motivasiya**

Müəllim şagirdlərə ütü şəklini göstərir və onların fikrini mövzuya yönəltmək məqsədi ilə sual verir:

– Uşaqlar, şəkildə gördüyünüz nədir? (ütü)

– Ütü ilə hansı işi görürlər? (paltarları ütüləyirlər)

Müəllim dərslikdəki digər elektrik əşyalarının şəkillərini şagirdlərə göstərir və onlar haqqında qısa məlumat verir.

***Tədqiqat sualı.*** Elektriklə işləyən avadanlıqları tapın.

***Tədqiqat aparılması.*** Şəklə əsasən suallar verilir.

**1.** Hansı elektrik əşyalarını tanıyırsınız? (ütü, tozsoran, ətçəkən, fen, televizor, şirəçəkən)

**2.** Şirəçəkən nə üçün istifadə olunur? (şirə çəkmək üçün)

**3.** Hansı əşya ilə təmizlik işləri görülür? (tozsoran)

**4.** Tikiş maşını nə üçün istifadə olunur? (paltar tikmək üçün)

**Tətbiqetmə.** *Tapşırıq: 2, 3, 4 (səh. 58); 1, 2, 3, 4 (səh. 59)*

**Qiymətləndirmə.** Müşahidə əsasında aparılır.

LAYİHƏ

## **Mövzu: 25.** *Bitkilər (2 saat)*

**Təlim məqsədləri:** 1. Şagirdlər bitkiləri tanıyır və adlandırır.
2. Bitkiləri qruplaşdırır.

| Dərsin tipi | İş forması | Metodlar | İnteqrasiya | Resurslar |
|---|---|---|---|---|
| İnduktiv | Fərdi iş, Böyük qruplarla iş | Beyin həmləsi, diskussiya, müzakirə | Nitq inkişafı, həyat bilgisi, riyaziyyat | Dərslik, üzərində bitki şəkilləri olan kartlar |

**Motivasiya**

Müəllim lövhəyə ağac şəkli asır və şagirdlərin fikrini mövzuya yönəltmək məqsədi ilə sual verir:

– Uşaqlar, şəkildə gördüyünüz nədir? (ağac)

Müəllim dərslikdəki “Bitkilər” mətnində olan şəkillərdən istifadə edərək bitkilərin adlarını sadalayır və onları qruplara bölür.

***Tədqiqat sualı.*** Hansı ağac və kolları tanıyırsınız?

***Tədqiqat aparılması.*** Şəklə əsasən suallar verilir.

**1.** Hansı ağacları tanıyırsınız? (alma, armud, heyva, nar)

**2.** Hansı kol meyvələrini tanıyırsınız? (moruq, çiyələk)

**Tətbiqetmə.** *Tapşırıq: 2 (səh. 62); tapşırıq 1, 2, 3 (səh. 63)*

**Qiymətləndirmə.** Müşahidə əsasında aparılır.

LAYİHƏ

## Mövzu: 26. *“Qoğal” nağılı (2 saat)*

**Təlim məqsədləri:** 1. Şagirdlər nağılı şəkil üzrə nəql edir.
2. Şəklə əsasən süjet ardıcıllığını müəyyən edin.

| Dərsin tipi | İş forması | Metodlar | İnteqrasiya | Resurslar |
|---|---|---|---|---|
| İnduktiv | Fərdi iş, Böyük qruplarla iş | Beyin həmləsi, diskusiya, müzakirə | Nitq inkişafı, həyat bilgisi, riyaziyyat | Dərslik, üzərində bitki şəkilləri olan kartlar |

**Motivasiya**

Müəllim lövhəyə qoğal şəkli asır və şagirdlərin fikrini dərsə yönəltmək məqsədi ilə (motivasiya) sual verir:

– Uşaqlar, şəkildə gördüyünüz nədir? (qoğal)

Müəllim dərslikdə “Qoğal” nağılına aid şəkillərdən istifadə edərək nağılı danışır.

***Tədqiqat sualı.*** Nə üçün tülkü qoğalı yeyə bildi?

***Tədqiqat aparılması.*** Şəklə əsasən suallar verilir.

**1.** Nağılda baş qəhrəman hansıdır? (Qoğal)

**2.** Nağılda başqa hansı qəhrəmanlar var? (Dovşan, Canavar, Ayı, Tülkü)

**3.** Nənə Qoğalı kimin üçün bişirmişdi? (baba üçün)

**4.** Nə üçün tülkü qoğalı yeyə bildi?

**Tətbiqetmə.** *Tapşırıq: 2 (səh. 64); tapşırıq 1, 2, 3 (səh. 65)*

**Qiymətləndirmə.** Müşahidə əsasında aparılır.

LAYİHƏ

## **Mövzu: 27.** *Canlı və cansız aləm. (1 saat)*

**Təlim məqsədi:** 1. Şagirdlər canlı və cansız aləmə aid olan cisimləri tanıyır və adlandırır. Onları fərqləndirir.

| Dərsin tipi | İş forması | Metodlar | İnteqrasiya | Resurslar |
|---|---|---|---|---|
| İnduktiv | Fərdi iş, Böyük qruplarla iş | Beyin həmləsi, diskussiya, müzakirə | Nitq inkişafı, həyat bilgisi, riyaziyyat | Dərslik, canlı və cansız aləmi əks etdirən şəkillər, bir neçə canlı və cansız aləmə aid oyuncaq və ya maketlər |

### Motivasiya

Müəllim lövhəyə insan şəkli asır və şagirdlərin fikrini mövzuya yönəltmək məqsədi ilə (motivasiya) sual verir:

– Uşaqlar, şəkildə gördüyünüz kimdir? (insan)

– İnsan nəfəs alır, ya yox? (alır)

Müəllim dərslikdəki “Canlı və cansız aləm” mövzusunda olan şəkillərdən istifadə edərək dərsi izah edir.

***Tədqiqat sualı.*** Canlı və cansız təbiət nə ilə fərqlənir?

***Tədqiqat aparılması.*** Şəklə əsasən suallar verilir.

**1.** Canlı varlıqlardan hansıları tanıyırsınız? (insanlar, bitkilər, heyvanlar, quşlar)

**2.** Cansız varlıqlardan hansıları tanıyırsınız? (günəş, ay, dəniz, əşyalar)

**3.** Canlı və cansız varlıqların fərqi nədir? (canlı varlıqlar nəfəs alır, qidalanır, böyüyür, çoxalır və məhv olur; cansız varlıqlar isə qidalanmır, böyümür, çoxalmır)

**Tətbiqetmə.** *Tapşırıq: (2 səh. 66)*

**Qiymətləndirmə.** Müşahidə əsasında aparılır.

LAYİHƏ

## **Mövzu:** *Təbiət. (2 saat)*

**Təlim məqsədi:** Şagirdlər şəklə əsasən cümlə qurur.

| Dərsin tipi | İş forması | Metodlar | İnteqrasiya | Resurslar |
|---|---|---|---|---|
| İnduktiv | Fərdi iş, Böyük qruplarla iş | Beyin həmləsi, diskussiya, müzakirə | Nitq inkişafı, həyat bilgisi, riyaziyyat | Dərslik, təbiətə aid şəkillər, canlı, cansız varlıqlara aid oyuncaq və ya maketlər |

### Motivasiya

Müəllim lövhəyə günəş və insan şəkilləri asır və onların fikrini mövzuya yönəltmək məqsədi ilə sual verir:

– Uşaqlar, günəş canlıdır, yoxsa cansız? (cansız)

– İnsan canlıdır, yoxsa cansız? (canlı)

Müəllim dərslikdəki "Təbiət" mətnində olan şəkillərdən istifadə edərək "Canlı və cansız aləm" mövzusunu möhkəmləndirir.

***Tədqiqat sualı.*** Canlı və cansız varlıqların fərqi nədir?

***Tədqiqat aparılması.*** Şəklə əsasən suallar verilir.

**1.** Şəkildə gördüyünüz nədir? (təbiət şəkli)

**2.** Təbiətdə nələri görürsünüz? (dəniz, balıqlar, günəş, ağaclar, heyvanlar, maşın, qayıq )

**3.** Şəkildə canlı varlıqlardan hansıları görürsünüz? (ağac, heyvanlar, balıqlar)

**4.** Şəkildə cansız varlıqlardan hansıları görürsünüz? (dəniz, qayıq, günəş, maşın)

**Tətbiqetmə.** *Tapşırıq: 1, 2, 3 (səh. 67)*

**Qiymətləndirmə.** Müşahidə əsasında aparılır.

LAYİHƏ

# II HİSSƏ

**Mövzu: 1. [A]** səsi və **“A”** hərfi *(1.2-ci saat)*

**Təlim məqsədləri:**

- Şagirdlər **[A]** səsi və **“A”** hərfini tanıyırlar.
- Sözlərdə **“A”** hərfinin yerini müəyyən edirlər.
- Böyük və kiçik **“A”, “a”** hərfini yazırlar.

| Dərsin tipi | İş forması | Metodlar | İnteqrasiya | Resurslar |
|---|---|---|---|---|
| İnduktiv | Fərdi iş, Böyük qruplarla iş | Beyin həmləsi | Həyat bilgisi, nitq inkişafı | Dərslik, şəkillər, maqnitofon |

**Motivasiya**

Müəllim maqnitofonda müxtəlif səslər (uşaq səsləri, suyun şırıltısı, quşların səsi və s.) səsləndirir.

– Uşaqlar, nə eşitdiniz? (Fərziyyələr dinlənilir...)

– Bunlar hamısı birlikdə “səs” adlanır. (müəllim səs anlayışı haqqında uşaqlara ətraflı məlumat verir).

Müəllim lövhəyə alma və ağac şəkilləri asaraq şagirdlərə sual verir.

– Şəkildə gördükləriniz necə adlanır? (alma, ağac) *Alma* və *ağac* sözləri hansı səslə başlayır?

– Deməli, biz səsi deyirik və eşidirik. (Bax: “Səsin öyrədilməsi” bölməsi)

Biz bu gün “a” səsi və “a” hərfi ilə tanış olacağıq.

Şagirdlərin diqqəti dərsliyə yönəldilir.

***Tədqiqat sualı.*** Şəkildə gördüyünz əşyaların adı hansı səslə başlayır?

***Tədqiqat aparılması.*** Dərslikdəki əşya şəkillərinin (armud, ayaq, ana, avtobus, ay) adlarının “a” səsi ilə başlandığı şagirdlərə izah olunur. Müəllim hər bir uşağa fərdi yanaşaraq “Aa” hərfinin yazılı və çap formasını göstərir.

**M:** – Böyük “A”, kiçik “a” nın çap forması. Böyük “A”, kiçik “a”nın yazı forması.

**Tətbiqetmə.** Müəllim şagirdlərdən “a” hərfi ilə başlayan sözlər soruşur, sözdə “a” səsinin yerini müəyyən etmək üçün tapşırıqlara keçir.

*Tapşırıq: 1, 2, 3, 4, 5 (səh. 6-7)*

**Qiymətləndirmə.** Müşahidə əsasında aparılır.

LAYİHƏ

**Mövzu:** **[A]** səsi və **“A”** hərfi *(3.4-cü saat)*

**Təlim məqsədləri:**

- Şagirdlər **[A]** səsi və **“A”** hərfini tanıyırlar.
- Sözlərdə **“A”** hərfinin yerini müəyyən edirlər.
- Böyük və kiçik **“A”**, **“a”** hərfini yazırlar, şəkildə gördüklərinin adlandırını deyirlər.

| Dərsin tipi | İş forması | Metodlar | İnteqrasiya | Resurslar |
|---|---|---|---|---|
| Deduktiv | Fərdi iş, Böyük qruplarla iş | Beyin həmləsi | Həyat bilgisi, nitq inkişafı | Dərslik, şəkillər, maqnitofon |

**Motivasiya**

Müəllim şagirdlərin diqqətini dərslikdəki ailə şəklinə yönəldərək soruşur.

– Şəkildə kimləri görürsünüz? (ata, ana, baba, nənə, bacı, qardaş)

– Adı çəkilən insanları bir sözlə necə ifadə edirik? (ailə)

– Ailə sözü hansı hərflə başlayır? (“a” hərfi ilə)

Şəkil üzərində müsahibə apararaq, ailə üzvlərinin adlarında **“a”** səsinin yerinin sözün hansı hissəsində olduğu müəyyən olunur.

**Tətbiqetmə.** *Tapşırıq: 6, 7, 8, 9. (səh. 8-9)*

**Qiymətləndirmə.** Müşahidə əsasında aparılır.

**Mövzu: 2.** **[N]** səsi və **“N”** hərfi *(1.2-ci saat)*

**Təlim məqsədləri:**

- Şagirdlər **[N]** səsi və **“N”** hərfini tanıyırlar.
- Sözlərdə **“N”** hərfinin yerini müəyyən edirlər.
- Böyük və kiçik **“N”**, **“n”** hərfini yazırlar.

| Dərsin tipi | İş forması | Metodlar | İnteqrasiya | Resurslar |
|---|---|---|---|---|
| İnduktiv | Fərdi iş, Böyük qruplarla iş | Beyin həmləsi | Həyat bilgisi, nitq inkişafı | Dərslik, şəkillər, maqnitofon |

LAYİHƏ

## Motivasiya

Müəllim şagirdlərə nar göstərərək sual verir.

– Bu nədir? (Nar)

Müəllim nar sözünün N səsi ilə başladığını izah etdikdən sonra şagirdlərin diqqətini dərsliyə yönəldir.

***Tədqiqat sualı.*** Şəkildə gördüyünüz əşyaların adı hansı səslə başlayır?

***Tədqiqat aparılması.*** Dərslikdəki əşya adlarının (nərdivan, nal, nəlbəki, nar) **[n]** səsi ilə başlandığı şagirdlərə izah olunur.

**M:** – Böyük "N", kiçik "n" nın çap forması. Böyük "N", kiçik "n"nın yazı forması.

**Tətbiqetmə.** Müəllim şagirdlərdən "n" hərfi ilə başlayan sözlər soruşur, sözdə "n" səsinin yerini müəyyən etmək üçün tapşırıqlara keçir.

*Tapşırıq: 1, 2, 3, 4, 5(səh. 10-11)*

**Qiymətləndirmə.** Müşahidə əsasında aparılır.

## Mövzu: **N** səsi və **N** hərfi *(3.4-cü saat)*

**Təlim məqsədləri:**

- Şagirdlər **[N]** səsi və **"N"** hərfini tanıyırlar.
- Sözlərdə **[N]** səsinin yerini müəyyən edirlər.
- **[N]** səsini ayrıca və heca daxilində tələffüz edirlər.
- Böyük və kiçik **"N", "n"** hərfini yazırlar.

| Dərsin tipi | İş forması | Metodlar | İnteqrasiya | Resurslar |
|---|---|---|---|---|
| Deduktiv | Kollektiv iş, fərdi iş | Diskusiya və müşahidə | Nitq inkişafı | Dərslik, şəkillər |

## Motivasiya

Müəllim şagirdlərin diqqətini lövhədən asılmış hərflərə yönəldərək soruşur:

– Kim deyər, bu hansı hərflərdir? ("a", "n")

– Kim [a] və [n] səsi ilə başlayan söz deyər?

LAYİHƏ

**Oxu:** Müəllim şagirdlərin diqqətini 12-ci səhifənin sol yuxarı küncünə yönəldir. Hər bir şagirdə fərdi yanaşaraq oxu texnikasını öyrədir:

– Uşaqlar, biz şəhadət barmağımızla (müəllim uşaqlara şəhadət barmağını göstərir) xətt boyunca nnn...aaa oxuyuruq. Sonda alınan hecamız "na" olur. Sonra "an", "ana" heca və sözləri fərdi yanaşma əsasında oxudulur.

**Tətbiqetmə.** *Tapşırıq: 6, 7, 8, 9, 10, 11, 12 (səh. 12-13)*

(tap.6 – "Nənə və nəvə" şeiri müəllim tərəfindən ifadəli söylənilir, diqqət "nənə" və "nəvə" sözlərinin hansı səslə başlandığına yönəldilir)

(*Tapşırıq*.7 – "Nar bağında" Şifahi nitqi formalaşdırılır.)

**Qiymətləndirmə.** Müşahidə əsasında aparılır.

## Mövzu: 3. [Ə] səsi və "Ə" hərfi *(1.2-ci saat)*

**Təlim məqsədləri:**

- Şagirdlər [Ə] səsi və "ə" hərfini tanıyırlar.
- Sözlərdə [Ə] səsinin yerini müəyyən edirlər.
- Böyük və kiçik **"Ə", "ə"** hərfini müəyyən olunmuş xətt boyunca düzgün yazırlar.
- "Ə" hərfi ilə verilən heca və sözləri oxuyurlar.

| Dərsin tipi | İş forması | Metodlar | İnteqrasiya | Resurslar |
|---|---|---|---|---|
| İnduktiv | Kollektiv iş, fərdi iş | Diskussiya və müşahidə | Nitq inkişafı | Dərslik, şəkillər |

**Motivasiya**

Müəllim lövhədən asılmış "əlcək" şəklini (və ya əlcəyin özünü) şagirdlərə göstərir.

– Uşaqlar bu nə şəklidir? (əlcək) (əlcək haqqında uşaqlara məlumat verir)

– *Əlcək* sözü hansı səslə başlayır? ([ə])

Biz bu gün [ə] səsi və "ə" hərfi ilə tanış olacağıq.

Şagirdlərin diqqətini dərsliyə yönəldir.

***Tədqiqat sualı.*** – Şəkillərin adları hansı hərflə başlayır?

LAYİHƏ

***Tədqiqat aparılması.*** Dərslikdəki əşya (əl, nənə, əncir, əsgər, ərik və s.) adlarının [ə] səsi ilə başlandığı şagirdlərə izah olunur. Həmin səhifədə "ə" hərfinin çap və yazı forması, şagirdlərə göstərilir.

Müəllim böyük **və** kiçik **"Ə", "ə"** hərfinin çap formasını, əllə yazılış formasını göstərir.

**Tətbiqetmə.** Müəllim şagirdlərə fərdi yanaşaraq "Oxuyaq" bölməsini bitirdikdən sonra hərf və səslərin yerini sözlərdə müəyyən etmək üçün tapşırıqlara keçir.

*Tapşırıq: 1, 2, 3, 4, 5 (Atalar sözləri əzbər öyrədilir) (səh. 14-15)*

**Qiymətləndirmə.** Müşahidə əsasında aparılır.

## **Mövzu:** **[Ə]** səsi və **"ə"** hərfi *(3.4-cü saat)*

**Təlim məqsədləri:**

- Şagirdlər [Ə] səsini, "ə" hərfini tanıyırlar.
- Sözlərdə "Ə" hərfinin yerini müəyyən edirlər.
- Şəkildə gördüklərini adlandırırlar.
- Hecaları və sözləri oxuyurlar.
- Böyük və kiçik **"Ə", "ə"** hərfini müəyyən olunmuş xətt boyunca düzgün yazırlar.

| Dərsin tipi | İş forması | Metodlar | İnteqrasiya | Resurslar |
|---|---|---|---|---|
| Deduktiv | Kollektiv iş, fərdi iş | Diskussiya və müşahidə | Nitq inkişafı | Dərslik, şəkillər |

**Motivasiya**

Müəllim şagirdlərə "sanama" soyləyir. *(dərslik 16-cı səhifə)*

– Uşaqlar, bu sanamada nədən danışılır? (kəpənəkdən)

Müəllim şagirdlərin diqqətini lövhədən asılmış "əl" və "kəpənək" şəkillərinə yönəldir.

– Şəkildəki adlara sanamada rast gəlirik. Bəs ən çox hansı səsi eşidirik?([ə])

Tərkibində [ə] səsi olan bir neçə söz səsləndirir.

**Oxu:** Hərfə aid heca və sözlər (səhifə 14, yuxarı sol küncdə) oxunur.

LAYİHƏ

**Tətbiqetmə.** Sözlərdə [ə] səsinin yerini müəyyən etmək və hərfləri birləşdirərək oxumaq.

Hərfin yazı texnikasının öyrədilməsi məqsədilə tapşırıqlar yerinə yetirilir.

*Tapşırıq: 6, 7, 8, 9, 10, 11, 12 (tap.11 "Əlcəyim" mətni üzrə müsahibə, şifahi nitqin inkişafı) (səh. 16-17)*

**Qiymətləndirmə.** Müşahidə əsasında aparılır.

## Mövzu:4. [T] səsi və "T" hərfi *(1.2-ci saat)*

**Təlim məqsədləri:**

- Şagirdlər **[T]** səsi və **"T"** hərfini tanıyırlar.
- Sözlərdə **[T]** səsinin yerini müəyyən edirlər.
- **"T"** hərfi ilə verilən heca və sözləri oxuyurlar.
- Böyük və kiçik **"T", "t"** hərfini müəyyən olunmuş xətt boyunca yazırlar.

| Dərsin tipi | İş forması | Metodlar | İnteqrasiya | Resurslar |
|---|---|---|---|---|
| İnduktiv | Kollektiv iş, fərdi iş | Diskussiya və müşahidə | Nitq inkişafı | Dərslik, şəkillər |

### Motivasiya

Müəllim keçmiş dərsin ("Ə" hərfi) sorğusu zamanı şagirdlərlə "Kim çox bilir?" oyunu keçirir.

– Uşaqlar, biz bu oyunda nədən istifadə etdik? (topdan)

Müəllim əlindəki topu uşaqlara göstərir və soruşur.

– "Top" sözü hansı səslə başlayır? ([T] səsi ilə)

Biz bu gün [T] səsi və "T" hərfiylə tanış olacağıq.

Şagirdlərin diqqətini dərslikdəki (səhifə 22) şəkillərə yönəldir.

***Tədqiqat sualı.*** Şəkildəki əşyaların adları hansı səslə başlayır?

***Tədqiqat aparılması.*** Dərslikdəki şəkillərin (top, tülkü, təyyarə, tort, tısbağa) adlarının [t] səsi ilə başlandığı şagirdlərə izah olunur. Hər bir şagirdə fərdi yanaşaraq, "T" hərfinin çap və yazı forması göstərilir.

LAYİHƏ

**Tətbiqetmə.** Müəllim şagirdlərə fərdi yanaşaraq "Oxuyaq" bölməsində hecaların və birhecalı sözlərin oxunma qaydasını izah edir. Sözlərdə "T" hərfinin yerini müəyyən etmək və yerinə yazma bacarığını formalaşdırmaq üçün tapşırıqlar yerinə yetirilir.

*Tap. 1, 2, 3, 4, 5 (səh. 22-23)*

**Mövzu:** **[T]** səsi və **"T"** hərfi *(3.4-cü saat)*

**Təlim məqsədləri:**

- Şagirdlər **"T"** hərfi ilə verilən heca və sözləri oxuyurlar.
- Süjetli şəkil üzrə danışırlar.
- Böyük və kiçik **"T", "t"** hərfinin müəyyən olunmuş xətt boyunca yazırlar.
- Heca və sözləri oxuyurlar.

| Dərsin tipi | İş forması | Metodlar | İnteqrasiya | Resurslar |
|---|---|---|---|---|
| Deduktiv | Kollektiv iş, fərdi iş | Diskussiya və müşahidə | Nitq inkişafı | Dərslik, şəkillər |

**Motivasiya**

Müəllim uşaqlara "Top" (Abdulla Şaiq) şeirini ifadəli söyləyir.

"Top" sözünün hansı səslə başlandığı müəyyən olunur və bundan sonra "t" hərfinin möhkəmləndirilməsi üzrə iş aparılır.

Hərflə bağlı verilən heca və sözlər (səhifə 24) oxunur.

**Tətbiqetmə:** Sözlərdə "t" hərfinin yerini müəyyən etmə, şəkil üzrə danışma və yazı texnikasının öyrədilməsi üzrə tapşırıqlar yerinə yetirilir.

*Tapşırıq: 6, 7, 8, 9, 10, 11 (tapşırıq 6-nı əzbər öyrənmək) (səh. 24-25)*

**Qiymətləndirmə.** Müşahidə əsasında aparılır.

LAYİHƏ

**Mövzu: 5.** **[L]** səsi və **"L"** hərfi *(1.2-ci saat)*

**Təlim məqsədləri:**

- Şagirdlər **[L]** səsi və **"L"** hərfini tanıyırlar.
- **"L"** hərfinin sözlərdə yerini müəyyən edirlər.
- Heca və sözləri oxuyurlar.
- Böyük və kiçik **"L"**, **"l"** hərfini yazırlar.

| Dərsin tipi | İş forması | Metodlar | İnteqrasiya | Resurslar |
|---|---|---|---|---|
| İnduktiv | Kollektiv iş, fərdi iş | Diskussiya və müşahidə | Nitq inkişafı | Dərslik, şəkillər |

**Motivasiya**

Müəllim şagirdlərlə "Dadından tanı" oyununu təşkil edir.

– Uşaqlar, sizin gözlərinizi bağlayacağam və sizə meyvə verəcəyəm. Həmin meyvəni yeyərək mənə adını deyəcəksiniz.

Dərsin vaxtından səmərəli istifadə etmək məqsədilə hər uşağa fərqli meyvələr (alma, nar, limon) verilir. Hər uşaqdan yediyi meyvənin adı soruşulur:

– Sən yediyin meyvənin adı nə idi? (nar)

– "Nar" sözü hansı səslə başlayır? ([N])

Başqa uşaqdan soruşur:

– Sən yediyin meyvənin adı nə idi? (limon)

– "Limon" sözü hansı səslə başlayır? ([L])

Biz bu gün [L] səsi və "L" hərfi ilə tanış olacağıq.

Müəllim şagirdlərin diqqətini dərslikdəki şəkillərə yönəldir.

***Tədqiqat sualı:*** Şəkillərdəki əşyaların, meyvələrin adları hansı səslə başlayır?

***Tədqiqat aparılması:*** Dərslikdəki şəkillərin adlarının "L" hərfi ilə başlandığı müəyyən edilir. Hər şagirdə fərdi yanaşaraq, hərfin çap və yazı forması göstərilir.

**Tətbiqetmə:** Şagirdə fərdi yanaşaraq "Oxuyaq" bölməsində hecaları düzgün oxuma bacarığı öyrədilir.

*Tapşırıq: 1, 2, 3, 4, 5 (səh. 26-27)*

**Qiymətləndirmə.** Müşahidə əsasında aparılır.

**Qeyd:** Mexaniki surətlə heca düzəltməyə vaxt itirməyin. Məsələn: [L] və [a] səsi birlikdə necə səslənəcək? Uşağa xatırladın ki, birinci səsi uzatmaq lazımdır: lll... və sonra ikinci səsi demək lazımdır. Məsələn: lllaaa

LAYİHƏ

## **Mövzu:** **[L]** səsi və **“L”** hərfi *(3.4-cü saat)*

**Təlim məqsədləri**

- **[L]** səsi və **“L”** hərfini tanıyırlar.
- Sözlərdə yerini müəyyən edirlər.
- Heca və sözləri oxuyurlar.
- Böyük və kiçik **“L”, “l”** hərfini yazırlar.

| Dərsin tipi | İş forması | Metodlar | İnteqrasiya | Resurslar |
|---|---|---|---|---|
| Deduktiv | Kollektiv iş, fərdi iş | Diskussiya və müşahidə | Nitq inkişafı | Dərslik, şəkillər |

**Motivasiya**

Uşaqların diqqəti dərslikdəki (səhifə 28) layla deyən ana şəklinə yönəldilir. (Şəkil proyektorla lövhədə göstərilə bilər.)

– Uşaqlar, şəkildə ana nə edir? (uşaq yatızdırır)

– Analar uşaqlarını yatızdırarkən ifa etdiyi musiqi necə adlanır? (lay-lay)

Kompüterdə layla səsləndirilir.

– Layla sözü hansı səslə başlayır? [L]

Şagirdlər müəllimlə birlikdə layla ifa edirlər. “Oxuyaq” bölməsində (səh. 28, solda, yuxarı) hecalar və sözlər oxunur. (Lalə sözünün adam adı kimi işlədildikdə böyük, gül adı kimi işlədildikdə kiçik hərflə yazıldığı şagirdlərə izah edilir)

**Tətbiqetmə.** Verilən şəkillərdən istifadə edərək cümlə qurmaq (tapşırıq 7), sözlərdə “L” hərfinin yerini müəyyən etmək, şifahi nitqi inkişaf etdirmək məqsədilə tapşırıqlar yerinə yetirilir.

*Tapşırıq: 6, 7, 8, 9, 10, 11* (səh. 28-29)

**Qiymətləndirilmə:** Müşahidə əsasında aparılır.

## **Mövzu: 6.** **[M]** səsi və **“M”** hərfi *(1.2-ci saat)*

**Təlim məqsədləri:**

- Şagirdlər **[M]** səsi və **“M”** hərfini tanıyırlar.
- **“M”** hərfinin sözlərdə yerini müəyyən edirlər.
- Heca və sözləri oxuyurlar.
- Böyük və kiçik **“M”, “m”** hərfini yazırlar.

LAYİHƏ

| Dərsin tipi | İş forması | Metodlar | İnteqrasiya | Resurslar |
|---|---|---|---|---|
| İnduktiv | Kollektiv iş, fərdi iş | Diskussiya və müşahidə | Nitq inkişafı | Dərslik, şəkillər |

**Motivasiya**

Müəllim C. Məmmədov, A. Rzayevin "Mişar" mahnısını səsləndirir.

– Uşaqlar, bu mahnı hansı əmək alətinə aiddir? (mişar)

– "Mişar" sözü hansı səslə başlayır? [M]

Biz bu gün [M] səsi və "M" hərfi ilə tanış olacağıq.

Şagirdlərin diqqəti dərsliyə yönləndirilir. (səhifə 32)

***Tədqiqat sualı:*** Şəkildəki əşyaların adları hansı səslə başlayır? ([M])

***Tədqiqat aparılması.*** Dərslikdəki əşya şəkillərinin (meymun, maşın, mişar, maral, mala, masa və s.) adlarının [m] səsi ilə başlandığı müəyyən olunur.

Müəllim hər uşağa fərdi yanaşaraq "m" hərfinin çap və yazı formasını göstərir.

**Tətbiqetmə.** Şagirdlərə fərdi yanaşılaraq, "Oxuyaq" bölməsində düzgün heca oxuma bacarığı öyrədilir.

*Tapşırıq: 1, 2, 3, 4, 5 (səh. 34-35)*

**Qiymətləndirmə:** Müşahidə əsasında aparılır.

## **Mövzu:** **[M]** səsi və **"M"** hərfi *(3.4-cü saat)*

**Təlim məqsədləri:**

- Şagirdlər **[M]** səsi və **"M"** hərfini tanıyırlar.
- **'M"** hərfinin sözlərdə yerini müəyyən edirlər.
- Heca və sözləri oxuyurlar.
- Böyük və kiçik **"M", "m"** hərfini yazırlar.

| Dərsin tipi | İş forması | Metodlar | İnteqrasiya | Resurslar |
|---|---|---|---|---|
| Deduktiv | Kollektiv iş, fərdi iş | Diskussiya və müşahidə | Nitq inkişafı | Dərslik, şəkillər |

LAYİHƏ

## Motivasiya

Müəllim [M] səsini və hərfini möhkəmləndirmək məqsədilə şagirdlərə yaxınlaşaraq onların şəxsi əşyalarını göstərir və soruşur:

– Bu, kimindir? (mənim)
– Bu qələm kimindir? (mənim)
– Qırmızı çanta kimindir? (mənim)
– Uşaqlar, "mənim" sözü hansı səslə başlayır? Hansı səslə bitir? ([m])

Tərkibində [m] səsi olan sözlər təkrarlanır. "Oxuyaq" bölməsində heca və sözlər (səhifə 36) oxunur.

**Tətbiqetmə.** Sözlərdə "m" hərfinin yerini müəyyən etmək, şəkillərə aid cümlə qurmaq, nitq bacarıqlarını formalaşdırmaq üçün tapşırıqlar yerinə yetirilir.

*Tapşırıq: 6, 7, 8, 9, 10, 11 (tapşırıq 6 əzbər öyrədilir) (səh. 36-37)*

**Qiymətləndirmə.** Müşahidə əsasında aparılır.

## Mövzu: 7. **[İ]** səsi və **"i"** hərfi *(1.2-ci saat)*

**Təlim məqsədləri:**

- **[İ]** səsi və **"İ"** hərfini tanıyırlar.
- **"İ"** hərfinin sözlərdə yerini müəyyən edirlər.
- Heca və sözləri oxuyurlar.
- Böyük və kiçik **"İ", "i"** hərfini yazırlar.

| Dərsin tipi | İş forması | Metodlar | İnteqrasiya | Resurslar |
|---|---|---|---|---|
| İnduktiv | Kollektiv iş, fərdi iş | Diskussiya və müşahidə | Nitq inkişafı | Dərslik, şəkillər |

## Motivasiya

Müəllim kompüterdə heyvan səslərini uşaqlara qulaq asdırır. Şagirdlərdən hansı heyvan səslərini eşitdiklərini soruşur.

LAYİHƏ

– Hansı heyvanların səsini eşitdiniz? (it, inək, ilan)

– Bu heyvan adları hansı səslə başlayır? ([İ])

Biz bu gün [İ] səsi və "İ" hərfi ilə tanış olacağıq.

Müəllim şagirdlərin diqqətini dərslikdəki şəkillərə yönəldir.

***Tədqiqat sualı:*** Şəkildəki heyvanların adları hansı səslə başlayır?

***Tədqiqat aparılması:*** Şəkillərdəki heyvan adlarının [İ] səsi ilə başlandığı müəyyən edilir.

Hər bir uşağa fərdi yanaşaraq, "İ" hərfinin çap və yazı forması göstərilir.

**Tətbiqetmə.** "Oxuyaq" bölməsində hecalar və sözlərin düzgün oxunması izah olunur.

**Qiymətləndirmə.** Müşahidə əsasında aparılır

**Qeyd:** Eyni tipli hecaları diqqətlə oxuyub təkrarlamaq, uşaqların təsəvvür etmək və fərziyyə yürütmək qabiliyyətlərini üzə çıxarmağa, yaddaşı formalaşdırmağa kömək edir.

*Tapşırıq: 1, 2, 3, 4, 5 (səh. 38-39)*

## **Mövzu:** **[İ]** səsi və **"İ"** hərfi *(3.4-cü saat)*

**Təlim məqsədləri:**

- Şagirdlər **"İ"** hərfinə aid heca və sözləri oxuyurlar.
- Şəkil üzrə cümlə qururlar.
- Sözlərdə **"İ"** hərfinin yerini müəyyən edib yazırlar.

| Dərsin tipi | İş forması | Metodlar | İnteqrasiya | Resurslar |
|---|---|---|---|---|
| Deduktiv | Kollektiv iş, fərdi iş | Diskussiya və müşahidə | Nitq inkişafı | Dərslik, şəkillər |

**Motivasiya**

"İtin dostluğu" mətni proyektorla lövhədə işıqlandırılır. Şəkildə təsvir olunan oğlanın adını "İlqar" deyə səsləndirir. Şəkil üzrə müsahibədən sonra müəllim soruşur:

– İt sözü hansı hərflə başlayır? (i)

LAYİHƏ

– Şəkildəki oğlanın adı hansı səslə başlayır? ([İ])

– Mətndə hansı heyvanın dostluğundan danışılır? (İtin)

Suallar əsasında “i” hərfi haqqında biliklər möhkəmləndirilir.

“Oxuyaq” bölməsindəki hecalar və sözlər oxunur. Söz və hecaları oxuyub bitirdikdən sonra müəllim şagirdlərdən hansı hecanı və sözü oxuduqlarını soruşur.

**Tətbiqetmə.** “İ” hərfi ilə bağlı bilik və bacarıqları möhkəmləndirmək məqsədilə tapşırıqlar yerinə yetirilir.

*Tapşırıq: 6, 7, 8, 9, 10, 11. (səh. 40-41)*

**Qiymətləndirmə.** Müşahidə əsasında aparılır.

## **Mövzu: 8.** **[B]** səsi və **“B”** hərfi *(1.2-ci saat)*

**Təlim məqsədləri:**

- Şagirdlər **[B]** səsi və **“B”** hərfini tanıyırlar.
- **“B”** hərfinin sözlərdə yerini müəyyən edirlər.
- Səsləri birləşdirərək hecaları oxuyurlar.
- Heca və sözləri oxuyurlar.
- Böyük və kiçik **“B”, “b”** hərfini yazırlar.

| Dərsin tipi | İş forması | Metodlar | İnteqrasiya | Resurslar |
|---|---|---|---|---|
| İnduktiv | Kollektiv iş, fərdi iş | Diskussiya və müşahidə | Nitq inkişafı | Dərslik, şəkillər |

**Motivasiya**

Müəllim açması “B” hərfi ilə başlanan bir tapmaca deyir:

– “Qanadı var, uça bilməz.” (balıq)

Tapmacanın cavabı tapılır, bu sözün ilk hərfinin “b” olduğu qeyd olunur.

Bu gün “b” hərfinin keçiləcəyi elan olunur.

Müəllim şagirdlərin diqqətini dərslikdəki şəkillərə yönəldir.

***Tədqiqat sualı:*** –Kim “B” hərfi ilə başlayan söz deyər? (banan, baba və s.)

LAYİHƏ

***Tədqiqat aparılması.*** Dərslikdəki əşya şəkillərinin adlarının (banan, baba, burun, bəbir, bir, balıq) "b" hərfi ilə başlandığı müəyyən edilir. Hərfin yazı və çap forması lövhədə və dərslikdə şagirdlərə göstərilir.

**Tətbiqetmə.** "Oxuyaq" bölməsindəki hecalar bir neçə dəfə oxudulur.

*Tapşırıq: 1, 2, 3, 4, 5 (4-cü tapşırıqdakı tapmaca əzbər öyrədilir). (səh. 46-47)*

**Qiymətləndirmə.** Müşahidə əsasında aparılır.

**Qeyd:** Üç hərfdən ibarət olan bir hecalı sözlərin oxusunda çətinliklər yaranır. Buna diqqət yetirmək lazımdır.

## **Mövzu:** **[B]** səsi və **"B"** hərfi *(3.4-cü saat)*

**Təlim məqsədləri:**

- Şagirdlər hecaları, bir və iki hecalı sözləri oxuyurlar.
- Sözlərdə buraxılmış hərfləri müəyyən edir və yazırlar.
- Böyük və kiçik **"B", "b"** hərfini yazırlar.

| Dərsin tipi | İş forması | Metodlar | İnteqrasiya | Resurslar |
|---|---|---|---|---|
| Deduktiv | Kollektiv iş, fərdi iş | Diskussiya və müşahidə | Nitq inkişafı | Dərslik, şəkillər |

### Motivasiya

Müəllim H.Ziyanın "Bal arısı" şeirini ifadəli oxuyur. Arı və bal haqqında geniş məlumat verir və şeri uşaqlarla birlikdə söyləyir.

– Uşaqlar, "bal" sözü hansı hərflə başlayır? ("B" hərfi ilə).

[B] səsi ilə başlanan sözlər təkrarlandıqdan sonra "Oxuyaq" bölməsinə keçirlər.

*Ba, ab, bə, əb* hecaları, *bal, bil* birhecalı, *bibi, baba, bala* ikihecalı sözləri oxunur. Müəllim hər sözün və hecanın hansı səslə başlandığını soruşur.

**Tətbiqetmə.** "B" hərfi ilə bağlı biliklərin möhkəmləndirilməsi məqsədilə tapşırıqlar yerinə yetirilir.

*Tapşırıq: 6, 7, 8, 9, 10, 11. (səh. 48-49)*

**Qiymətləndirmə.** Müşahidə əsasında aparılır.

LAYİHƏ

## **Mövzu: 9.** **[R]** səsi və **"R"** hərfi *(1.2-ci saat)*

**Təlim məqsədləri:**

- Şagirdlər [R] səsi və "R" hərfini tanıyırlar.
- "R" hərfinin sözlərdə yerini müəyyən edirlər.
- Heca və sözləri oxuyurlar.
- Səsləri birləşdirir və oxuyurlar.
- Böyük və kiçik **"R", "r"** hərfini yazırlar.

| Dərsin tipi | İş forması | Metodlar | İnteqrasiya | Resurslar |
|---|---|---|---|---|
| İnduktiv | Kollektiv iş, fərdi iş | Diskussiya və müşahidə | Nitq inkişafı | Dərslik, şəkillər |

**Motivasiya**

Müəllim şagirdlərin diqqətini dərslikdəki şəkillərə yönəldir. Rəndə, raket, robot, rəssam sözlərinin "r" hərfi ilə başladığı uşaqlara izah olunur.

***Tədqiqat sualı:*** Şəkildəki adlar hansı səslə başlayır? (R)

***Tədqiqat aparılması.*** Şəkillərdəki sözlərin "R" hərfi ilə başlandığı müəyyən olunur.

Hər bir şagirdə fərdi yanaşaraq hərfin çap və yazı forması göstərilir.

**Tətbiqetmə.** Hər şagirdə fərdi şəkildə yanaşaraq, "Oxuyaq" bölməsindəki hecaları düzgün oxuma bacarıqları formalaşdırılır.

*Tapşırıq: 1, 2, 3, 4, 5. (səh. 50-51)*

**Qiymətləndirmə.** Müşahidə əsasında aparılır.

LAYİHƏ

**Mövzu:** **[R]** səsi və **“R”** hərfi *(3.4-cü saat)*

**Təlim məqsədləri:**

- Şagirdlər [R] səsi və “R” hərfini tanıyırlar.
- “R” hərfinin sözlərdə yerini müəyyən edirlər.
- Heca və sözləri oxuyurlar.
- Səsləri birləşdirir və oxuyurlar.
- Böyük və kiçik **“R”**, **“r”** hərfini yazırlar.

| Dərsin tipi | İş forması | Metodlar | İnteqrasiya | Resurslar |
|---|---|---|---|---|
| Deduktiv | Kollektiv iş, fərdi iş | Diskussiya və müşahidə | Nitq inkişafı | Dərslik, şəkillər |

**Motivasiya**

“Ramilin ad günü” mətninə dair şəkil lövhədə işıqlandırılır.

Müəllim sonra soruşur:

– Ad günü olan oğlanın adı nədir? (Ramil)

– Ramilin bacısının adı nə idi? (Rəna)

– Rəna Ramilə nə hədiyyə aldı? (robot)

– Ramil, Rəna, robot sözləri hansı səslə başlayır? ([R] səsi ilə)

Suallar əsasında “r” hərfi haqqında biliklər möhkəmləndirilir. ‘Oxuyaq” bölməsindəki hecalar və sözlər oxunur. Söz və hecaları oxuyub bitirdikdən sonra müəllim şagirdlərdən hansı hecaları və sözləri oxuduqlarını soruşur.

**Tətbiqetmə.**“R” hərfi ilə bağlı bilik və bacarıqları möhkəmləndirmək məqsədilə tapşırıqlar yerinə yetirir.

*Tapşırıq: 6, 7, 8, 9, 10, 11. (səh. 52-53)*

**Qiymətləndirmə.** Müşahidə əsasında aparılır.

LAYİHƏ

## Mövzu: 10. **[I]** səsi və **"I"** hərfi *(1.2-ci saat)*

**Təlim məqsədləri:**

- Şagirdlər **[I]** səsi və **"I"** hərfini tanıyırlar.
- ‘**"I"** hərfinin sözlərdə yerini müəyyən edirlər.
- Heca və sözləri oxuyurlar.
- Böyük və kiçik **"I", "ı"** hərfini yazırlar.

| Dərsin tipi | İş forması | Metodlar | İnteqrasiya | Resurslar |
|---|---|---|---|---|
| İnduktiv | Kollektiv iş, fərdi iş | Diskussiya və müşahidə | Nitq inkişafı | Dərslik, şəkillər |

**Motivasiya**

Müəllim lövhədən asılmış arı və ayı şəkillərini şagirdlərə göstərərək soruşur:

– Bunlar nə şəkilləridir? (ayı, arı)

– *Ayı* və *arı* sözlərinin axırında hansı səsi eşidirik? ([I] səsini)

– Biz bu gün [I] səsi və "I" hərfi ilə tanış olacağıq.

Müəllim şagirdlərin diqqətini dərslikdəki şəkillərə yönəldir.

***Tədqiqat sualı:*** Şəkildəki adlar hansı səslə bitir?

***Tədqiqat aparılması.*** Şəkillərdəki adların "I" səsi ilə bitdiyi uşaqlara izah edilir. Müəllim heç bir sözün "I" hərfi ilə başlamadığını uşaqlara söyləyir.

**Tətbiqetmə.** Hər şagirdə fərdi yanaşaraq, "Oxuyaq" bölməsində hecaları düzgün oxuma bacarıqları formalaşdırılır.

*Tapşırıq: 1, 2, 3, 4, 5. (səh. 58-59)*

**Qiymətləndirmə.** Müsahibə əsasında aparılır.

LAYİHƏ

**Mövzu:** **[I]** səsi və **“I”** hərfi *(3.4-cü saat)*

**Təlim məqsədləri:**

- Şagirdlər [I] səsi və “I” hərfini tanıyırlar.
- “I” hərfinin sözlərdə yerini müəyyən edirlər.
- Heca və sözləri oxuyurlar.
- Böyük və kiçik **“I”, “ı”** hərfini yazırlar.

| Dərsin tipi | İş forması | Metodlar | İnteqrasiya | Resurslar |
|---|---|---|---|---|
| Deduktiv | Kollektiv iş, fərdi iş | Diskussiya və müşahidə | Nitq inkişafı | Dərslik, şəkillər |

**Motivasiya**

“Arılar” mətninə aid olan şəkil lövhədən asılır. işıqlandırılır. (Proyektor yoxsa, diqqət kitabdakı şəklə yönəldilir.)

Şəkil üzrə müsahibə əsasında şagirdlərin şifahi nitqi formalaşdırılır. Arı sözünün “I” hərfi ilə bitməsi şagirdlərə bir daha izah edilir.

“Oxuyaq” bölməsində verilən hecalar oxunur, üç hərfdən ibarət ikihecalı sözlərin oxunmasına xüsusi diqqət yetirilir.

**Tətbiqetmə.** Hər şagirdə fərdi yanaşaraq, “Oxuyaq” bölməsində hecaları düzgün oxuma bacarıqları formalaşdırılır.

*Tapşırıq: 6, 7, 8, 9, 10, 11. (səh. 60-61)*

**Qiymətləndirmə.** Müşahidə əsasında aparılır.

LAYİHƏ

## **Mövzu: 11.** **[D]** səsi və **“D”** hərfi *(1.2-ci saat)*

**Təlim məqsədləri:**

- Şagirdlər **[D]** səsi və “**D**” hərfini tanıyırlar.
- Sözlərdə **“D”** hərfinin yerini müəyyən edirlər.
- Heca və sözləri oxuyurlar.
- Böyük və kiçik **“D”, “d”** hərfini yazırlar.

| Dərsin tipi | İş forması | Metodlar | İnteqrasiya | Resurslar |
|---|---|---|---|---|
| İnduktiv | Kollektiv iş, fərdi iş | Diskussiya və müşahidə | Nitq inkişafı | Dərslik, şəkillər |

### Motivasiya

Müəllim şagirdlərə şəkillər göstərir və sual verir:

– Şəkildə nə görürsünüz? (dəniz, dovşan, durna).

– Bu sözlərin əvvəlində hansı yeni səsi eşitdiniz? ([D] səsini).

– Biz bu gün [D] səsi ilə tanış olacağıq.

Müəllim şagirdlərin diqqətini dərslikdəki şəkillərə yönəldir.

***Tədqiqat sualı:*** Şəkildəki adlar hansı səslə başlayır?

***Tədqiqat aparılması.*** Dərslikdəki şəkillərin adlarının [d] səsi ilə başlandığı, “d” hərfinin sözün əvvəlində, ortasında və axırında işləndiyi izah edilir. Hərfin yazı və çap forması lövhədə və dərslikdə şagirdlərə göstərilir.

**Tətbiqetmə:** Hər şagirdə fərdi yanaşaraq, “Oxuyaq” bölməsində hecaları düzgün oxuma bacarıqları formalaşdırılır.

*Tapşırıq: 1, 2, 3, 4, 5. (səh. 62-63)*

**Qiymətləndirmə.** Müşahidə əsasında aparılır.

LAYİHƏ

**Mövzu:** **[D]** səsi və **"D"** hərfi *(3.4-cü saat)*

**Təlim məqsədləri:**

- Şagirdlər **[D]** səsi və **"D"** hərfini tanıyırlar.
- Sözlərdə **"D"** hərfinin yerini müəyyən edirlər.
- Heca və sözləri oxuyurlar.
- Böyük və kiçik **"D", "d"** hərfini yazırlar.

| Dərsin tipi | İş forması | Metodlar | İnteqrasiya | Resurslar |
|---|---|---|---|---|
| Deduktiv | Kollektiv iş, fərdi iş | Diskussiya və müşahidə | Nitq inkişafı | Dərslik, şəkillər |

**Motivasiya**

Müəllim Hüseyn Əliyevin "Dovşan" şerini söyləyir. Şeri 1-2 dəfə aramla söylədikdən sonra şagirdlərdən soruşur:

– *Dovşan* sözü hansı səslə başlayır? ([D] səsi ilə).

[D] səsi ilə başlanan bir neçə söz deyildikdən sonra "Oxuyaq" bölməsinə keçilir.

Hecalar və birhecalı sözlər diqqətlə oxunur. "Durnalar" mətni üzrə müsahibə aparılır.

**Tətbiqetmə.** Hər şagirdə fərdi yanaşaraq, "Oxuyaq" bölməsində hecaları düzgün oxuma bacarıqları formalaşdırılır.

*Tapşırıq: 6, 7, 8, 9, 10, 11. (səh. 64-65)*

**Qiymətləndirmə.** Müşahidə əsasında aparılır.

LAYİHƏ

## **Mövzu: 12.** **[Y]** səsi və **“Y”** hərfi *(1.2-ci saat)*

**Təlim məqsədləri:**

- Şagirdlər **[Y]** səsi və **“Y”** hərfini tanıyırlar.
- Sözlərdə **“Y”** hərfinin yerini müəyyən edirlər.
- Heca və sözləri oxuyurlar.
- Böyük və kiçik **“Y”**, **“y”** hərfini yazırlar.

| Dərsin tipi | İş forması | Metodlar | İnteqrasiya | Resurslar |
|---|---|---|---|---|
| İnduktiv | Kollektiv iş, fərdi iş | Diskussiya və müşahidə | Nitq inkişafı | Dərslik, şəkillər |

**Motivasiya**

Müəllim şagirdlərə tapmaca söyləyir:

– O yanı qaya,
Bu yanı qaya,
İçində sarı maya. (yumurta)

– “Yumurta” sözü hansı səslə başlayır? ([Y] səsi ilə)

[Y] səsi ilə başlayan bir neçə söz deyilir. Müəllim elan edir:

– Bu gün biz [Y] səsi və “Y” hərfi ilə tanış olacağıq.

Şagirdlərin diqqətini dərslikdəki şəkillərə yönəldir.

***Tədqiqat sualı:*** Şəkildəki əşya adları hansı səslə başlayır?

***Tədqiqat aparılması.*** Şəkillərdəki əşya adlarının “Y” hərfi ilə başlandığı müəyyən edilir. Hər bir şagirdə fərdi yanaşaraq, hərfin çap və yazı forması göstərilir. Hərfin sözün müxtəlif yerlərində (əvvəldə, ortada, axırda) işləndiyi qeyd olunur.

**Tətbiqetmə.** Hər şagirdə fərdi yanaşaraq, “Oxuyaq” bölməsindəki hecaları düzgün oxuma bacarıqları formalaşdırılır.

*Tapşırıq: 1, 2, 3, 4, 5. (səh. 70-71)*

**Qiymətləndirmə.** Müşahidə əsasında aparılır.

LAYİHƏ

**Mövzu:** **[Y]** səsi və **"Y"** hərfi *(3.4-cü saat)*

**Təlim məqsədləri:**

- Şagirdlər **[Y]** səsi və **"Y"** hərfini tanıyırlar.
- Sözlərdə **"Y"** hərfinin yerini müəyyən edirlər.
- Heca və sözləri oxuyurlar.
- Böyük və kiçik **"Y", "y"** hərfini yazırlar.

| Dərsin tipi | İş forması | Metodlar | İnteqrasiya | Resurslar |
|---|---|---|---|---|
| Deduktiv | Kollektiv iş, fərdi iş | Diskussiya və müşahidə | Nitq inkişafı | Dərslik, şəkillər |

**Motivasiya**

Müəllim M. Seyidzadənin "Yağış" şerini ifadəli söyləyir. Şagirdlərə şeirin məzmunu haqqında məlumat verdikdən sonra soruşur:

– "Yağış" sözü hansı səslə başlayır? ([Y] səsi ilə)

Tərkibində "y" hərfi olan bir neçə söz deyilir və həmin sözləri cümlədə işlətmək təklif olunur.

– Yağış yağır.

– Payızda yağış yağır.

"Oxuyaq" bölməsindəki hecalar və sözlər oxunur.

**Tətbiqetmə:** Hər şagirdə fərdi yanaşaraq, "Oxuyaq" bölməsində hecaları düzgün oxuma bacarıqları formalaşdırılır.

*Tapşırıq: 6, 7, 8, 9, 10, 11 (10-cu tapşırığın aşağı tərəfində verilən cümlələr oxunur) (səh. 72-73)*

**Qiymətləndirmə.** Müşahidə əsasında aparılır.

LAYİHƏ

## **Mövzu: 13.** **[O]** səsi və **“O”** hərfi *(1.2-ci saat)*

**Təlim məqsədləri:**

- Şagirdlər **[O]** səsi və **“O”** hərfini tanıyırlar.
- Sözlərdə **“O”** hərfinin yerini müəyyən edirlər.
- Heca və sözləri oxuyurlar.
- Böyük və kiçik **“O”**, **“o”** hərfini yazırlar.

| Dərsin tipi | İş forması | Metodlar | İnteqrasiya | Resurslar |
|---|---|---|---|---|
| İnduktiv | Kollektiv iş, fərdi iş | Diskussiya və müşahidə | Nitq inkişafı | Dərslik, şəkillər |

**Motivasiya**

Müəllim “Oynaq topum” mahnısını səsləndirir. Şagirdlər mahnını bir-iki dəfə dinlədikdən sonra müəllimlə birlikdə ifa edirlər.

– Uşaqlar ifa etdiyiniz mahnının adı hansı səslə başlayır? ([O] hərfi ilə)

– Biz bu gün [O] səsi və “O” hərfi ilə tanış olacağıq.

Müəllim şagirdlərin diqqətini dərslikdəki şəkillərə yönəldir.

***Tədqiqat sualı:*** Şəkildəki adlar hansı səslə başlayır?

***Tədqiqat aparılması:*** Şəkillərdəki adların [O] səsi ilə başlandığı müəyyən olunur.

**Tətbiqetmə.** Şagirdə fərdi yanaşaraq “Oxuyaq” bölməsində hecaları düzgün oxuma bacarığı formalaşdırılır.

*Tapşırıq: 1, 2, 3, 4, 5 (səh. 74-75)*

**Qiymətləndirmə.** Müşahidə əsasında aparılır.

LAYİHƏ

**Mövzu:** **[O]** səsi və **“O”** hərfi *(3.4-cü saat)*

**Təlim məqsədləri:**

- Şagirdlər **[O]** səsi və **“O”** hərfini tanıyırlar.
- Sözlərdə **“O”** hərfinin yerini müəyyən edirlər.
- Heca və sözləri oxuyurlar.
- Böyük və kiçik **“O”, “o”** hərfini yazırlar.

| Dərsin tipi | İş forması | Metodlar | İnteqrasiya | Resurslar |
|---|---|---|---|---|
| Deduktiv | Kollektiv iş, fərdi iş | Diskussiya və müşahidə | Nitq inkişafı | Dərslik, şəkillər |

**Motivasiya**

Müəllim A. Şaiqin “Oyan, oğlum” şerini aramla söyləyir. Şerin məzmunu ilə tanışlıqdan sonra müəllim soruşur.

– “Oyan” və “oğlum” sözləri hansı səslə başlayır? ([O] səsi ilə)

Tərkibində [O] səsi olan sözlər sadalanır.

Oxuyaq bölməsindəki hecalar və sözlər oxunur. Hecaların yadda qalması üçün oxuduqdan sonra səsli tələffüz edilir.

**Tətbiqetmə.** Hərflər haqqında biliklərin yoxlanması məqsədilə tapşırıqlar keçir.

*Tapşırıq: 6, 7, 8, 9, 10, 11 (10-cu tapşırıq haqqında məlumat məqsədilə verilir) (səh. 76-77)*

**Qiymətləndirmə.** Müşahidə əsasında aparılır

LAYİHƏ

## Mövzu: 14. [S] səsi və "S" hərfi *(1.2-ci saat)*

**Təlim məqsədləri:**

- Şagirdlər **[S]** səsi və **"S"** hərfini tanıyırlar.
- Sözlərdə **"S"** hərfinin yerini müəyyən edirlər.
- Heca və sözləri oxuyurlar.
- Böyük və kiçik **"S", "s"** hərfini yazırlar.

| Dərsin tipi | İş forması | Metodlar | İnteqrasiya | Resurslar |
|---|---|---|---|---|
| İnduktiv | Kollektiv iş, fərdi iş | Diskussiya və müşahidə | Nitq inkişafı | Dərslik, şəkillər |

### Motivasiya

Müəllim aşağıdakı şeiri səsləndirir:

– Sərxanın və Samirin
Adında birincidir.
"Atlas" sözündə sonda
"Osman" da ikincidir.

– Bu şeirdə söhbət hansı səsdən gedir? ([S] səsindən)

Şagirdlər sualı cavablandırdıqdan sonra müəllim bildirir ki, daha bir şeir oxuyacaq. Onlar bu şeirdə "S" səsi ilə başlayan sözləri tapmalıdırlar:

– Səhər-səhər bağçada
Bir sərçə dən yeyirdi.
Hərdən baxıb üzümə.
"Çik-çik, çik-çik" deyirdi. (Teymur Elçin)

Müəllim şagirdlərin diqqətini dərslikdəki şəkillərə yönəldir.

***Tədqiqat sualı:*** Şəkildəki adlar hansı səslə başlayır?

***Tədqiqat aparılması:*** Şəkillərdəki adları "S" hərfi ilə başlandığı izah edilir.

Hər bir şagirdə fərdi yanaşaraq hərfin çapı və yazı forması göstərilir.

**Tətbiqetmə.** Hər şagirdə fərdi yanaşaraq, "Oxuyaq" bölməsində hecaları düzgün oxuma bacarığı formalaşdırılır.

*Tapşırıq: 1, 2, 3, 4 (səh. 82-83)*

**Qiymətləndirmə.** Müşahidə əsasında aparılır.

LAYİHƏ

**Mövzu:** **[S]** səsi və **“S”** hərfi *(3.4-cü saat)*

**Təlim məqsədləri:**

- Şagirdlər [S] səsi və “S” hərfini tanıyırlar.
- Sözlərdə “S” hərfinin yerini müəyyən edirlər.
- Heca və sözləri oxuyurlar.
- Böyük və kiçik **“S”, “s”** hərfini yazırlar.

| Dərsin tipi | İş forması | Metodlar | İnteqrasiya | Resurslar |
|---|---|---|---|---|
| Deduktiv | Kollektiv iş, fərdi iş | Diskussiya və müşahidə | Nitq inkişafı | Dərslik, şəkillər |

**Motivasiya**

Müəllim M. Seyidzadənin “Sərçələr” şeirindən motivasiya yaratmaq üçün istifadə edir. Şeir ifadəli söylənilir, şəkil üzrə müsahibə təşkil olunur.

– Şəkildə nə görürsünüz? (budaqlar və sərçələr)

Sərçə haqqında biliklər ümumiləşdirilir.

– Sərçə sözü hansı səslə başlayır? ([S] səsi ilə)

[S] səsindən istifadə edərək sözlər saat söylənilir.

Həmin sözlər cümlədə işlədilir.

– Saat 12:00-dır.

– Mənim saatım var.

“Oxuyaq” bölməsində heca və sözlər çox olduğu üçün əvvəl müəllim oxuyur, sonra şagirdlər oxuyur.

**Tətbiqetmə**. Hər şagirdə fərdi yanaşaraq hecaları düzgün oxuma bacarıqları formalaşdırılır.

*Tapşırıq: 5, 6, 7, 8, 9, 10 (səh. 84-85)*

**Qiymətləndirmə.** Müşahidə əsasında aparılır.

LAYİHƏ

## Mövzu: 15. [U] səsi və “U” hərfi *(1.2-ci saat)*

**Təlim məqsədləri:**

- Şagirdlər **[U]** səsi və **“U”** hərfini tanıyırlar.
- Sözlərdə **“U”** hərfinin yerini müəyyən edirlər.
- Heca və sözləri oxuyurlar.
- Böyük və kiçik **“U”, “u”** hərfini yazırlar.

| Dərsin tipi | İş forması | Metodlar | İnteqrasiya | Resurslar |
|---|---|---|---|---|
| İnduktiv | Kollektiv iş, fərdi iş | Diskussiya və müşahidə | Nitq inkişafı | Dərslik, şəkillər |

**Motivasiya**

- Uşaqlar, mən sizə cümlə söyləyəcəm.
- “Uşaq uzaqlaşdı”. Bu cümlədəki sözlər hansı səslə başlayır? ([U])

Aşağıdakı şeir də səsləndirilə bilər:

“U” ulduzdur ucalıb,
Hər sinif otağında,
Yurdumun rəmzi olan
Üçrəngli bayrağımda!

Şeirdə “ulduz” sözündən başqa tərkibində u səsi olan digər sözlər də müəyyən olunur.

Biz bu gün [U] səsi və “U” hərfi ilə tanış olacağıq.

Şagirdlərin diqqətini dərslikdəki şəkillərə yönəldir.

***Tədqiqat sualı:*** Şəkil adları hansı səslə başlayır?

***Tədqiqat aparılması:*** Dərslikdəki şəkillərin adları “U” hərfi ilə başlandığı izah olunur. Hər bir şagirdə fərdi yanaşaraq hərfin çap yazı forması göstərilir.

**Tətbiqetmə.** Şagirdə fərdi yanaşaraq “Oxuyaq” bölməsində düzgün heca oxuma bacarığı öyrədilir.

*Tapşırıq: 1, 2, 3, 4, 5. (səh. 86-87)*

**Qiymətləndirmə:** Müşahidə əsasında aparılır.

LAYİHƏ

**Mövzu:** **[U]** səsi və **“U”** hərfi *(3.4-cü saat)*

**Təlim məqsədləri:**

- Şagirdlər **[U]** səsi və **“U”** hərfini tanıyırlar.
- Sözlərdə **“U”** hərfinin yerini müəyyən edirlər.
- Heca və sözləri oxuyurlar.
- Böyük və kiçik **“U”, “u”** hərfini yazırlar.

| Dərsin tipi | İş forması | Metodlar | İnteqrasiya | Resurslar |
|---|---|---|---|---|
| Deduktiv | Kollektiv iş, fərdi iş | Diskussiya və müşahidə | Nitq inkişafı | Dərslik, şəkillər |

**Motivasiya**

Müəllim motivasiya məqsədilə şagirdlərlə “Gördüyünü de” oyununu keçirir.

- Bir-bir mənim masama yaxınlaşıb bir şəkil götürəcəksiniz, şəkildə gördüyünüzün adını söyləyib və hansı səslə başladığını deyəcəksiniz.

***Məsələn:*** “Ulduz” şəkli [u] səsi ilə başlayır, “uşaq” şəkli: [u] səsi ilə başlayır, “usta” şəkli [u] səsi ilə başlayır.

Oyun bütün uşaqlarla keçirilir.

“Oxuyaq” bölməsindəki hecaların köməyi ilə ikihecalı sözlər oxunur.

Şagirdlərə düz xətt boyunca oxumağı öyrətmək lazımdır.

**Tətbiqetmə.** “U” hərfi ilə bağlı biliklərin möhkəmləndirilməsi məqsədilə tapşırıqlar keçir.

*Tapşırıq: 6, 7, 8, 9, 10, 11 (səh. 88-89)*

**Qiymətləndirmə:** Müşahidə əsasında aparılır.

LAYİHƏ

**Mövzu: K** səsi və **"K"** hərfi *(1.2-ci saat)*

**Təlim məqsədləri:**

- **[K]** səsi və **"K"** hərfini tanıyırlar.
- Sözlərdə yerini müəyyən edirlər.
- Heca və sözləri oxuyurlar.
- Böyük və kiçik **"K", "k"** hərfini yazırlar.

| Dərsin tipi | İş forması | Metodlar | İnteqrasiya | Resurslar |
|---|---|---|---|---|
| İnduktiv | Kollektiv iş, fərdi iş | Diskussiya və müşahidə | Nitq inkişafı | Dərslik, şəkillər |

**Motivasiya**

Müəllim motivasiya məqsədilə yanıltmac söyləyir.

– Körpüdən keçdi keçi
Çaydan su içdi keçi
Meşədə buynuzundan,
Kola ilişdi keçi. (Mədinə Gülğün)

(Getdim, gördüm, bir dərədə iki kar, kör, kürkü yırtıq kirpi var... yanıltmacını da səsləndirmək olar)

– Yanıltmacda daha çox işlənən səs hansıdır? ([K])

– Bu səs hansı sözlərdə işlənir? (keçi, keçdi, kürk və s.)

Tərkibində [k] səsi olan sözlər deyilir.

Şagirdlərin diqqətini dərslikdəki şəkillərə yönəldir.

***Tədqiqat sualı:*** Şəkil adları hansı hərflə başlayır?

***Tədqiqat aparılması:*** Verilmiş hecalar oxunur.

**Tətbiqetmə.** Şagirdə fərdi yanaşaraq "Oxuyaq" bölməsində düzgün heca oxuma bacarığı öyrədilir.

*Tapşırıq: 1, 2, 3, 4, 5 (səh. 90-91)*

**Qiymətləndirmə:** Müşahidə əsasında aparılır.

**Qeyd:** "Bir hərf – iki səs" anlayışı uşaqlara izah edilir. Məsələn: traktor – [k], kələm – [k].

LAYİHƏ

**Mövzu:** **[K]** səsi və **“K”** hərfi *(3.4-cü saat)*

**Təlim məqsədləri:**

- **[K]** səsi və **“K”** hərfini tanıyırlar.
- Sözlərdə yerini müəyyən edirlər.
- Heca və sözləri oxuyurlar.
- Böyük və kiçik **“K”**, **“k”** hərfini yazırlar.

| Dərsin tipi | İş forması | Metodlar | İnteqrasiya | Resurslar |
|---|---|---|---|---|
| Deduktiv | Kollektiv iş, fərdi iş | Diskusiya və müşahidə | Nitq inkişafı | Dərslik, şəkillər |

**Motivasiya**

Əvvəlki dərsdə keçirilən yanıltmac təkrarlanır.

“Kitab” mətninə aid olan şəkil üzrə müsahibə aparılır. Müsahibə əsasında şifahi nitqin formalaşması ön plana çəkilir “kitab, kitabxana, kassa” sözlərində [k`] və [k] səslərinin fərqli səslənmələri haqqında məlumat verir.

Oxuyaq bölməsindəki hecalar və ikihecalı sözlər oxunur.

**Tətbiqetmə.** "K" hərfi ilə bağlı bilikləri möhkəmləndirmək məqsədilə tapşırıqlar yerinə yetirilir.

*Tapşırıq: 6, 7, 8, 9, 10, 11 (səh. 92-93)*

**Qiymətləndirmə:** Müşahidə əsasında aparılır.

LAYİHƏ

**İstifadə edilmiş ədəbiyyat.**

**1.** Kurikulum pedaqogika **– 2019** G. Hüseynova
**2.** İnklüziv siniflərdə təlimin təşkili – Bakı, 2018

BURAXILIŞ MƏLUMATI

***Azərbaycan dili 1-ci sinif***
***metodik vəsait***

**Tərtibçi heyət**

**Layihə rəhbəri** Rəhilə Soltanqızı

**Müəlliflər** Farizə Nəbiyeva
Aygün Qasımova
Yeganə Məmmədəliyeva
Könül Doxolova
Süleyman Kərimov
Həbib Kərimov

**Nəşriyyatın direktoru** Rəhilə Səfərəliyeva
**Dizayn** Nigar Feyzullayeva
**Texniki redaktor** Ruslan Mahmudov
**Korrektor** Kəklik Məmmədova

**© Azərbaycan Respublikası Təhsil Nazirliyi - (qrif nömrəsi: )**

Müəlliflik hüquqları qorunur. Xüsusi icazə olmadan bu nəşri və yaxud onun hər hansı hissəsini yenidən çap etdirmək, surətini çıxarmaq, elektron informasiya vasitələri ilə yaymaq qanuna ziddir.

Fiziki çap vərəqi. 10. Format 60x84. Səhifə sayı 80.
Tirajı. Pulsuz. Bakı-2021

Əlyazmanın yığıma verildiyi və çapa imzalandığı tarix:

Çap məhsulunu hazırlayan:
Çaşıoğlu Eİ MMC

Çap məhsulunu hazırlayan:
Çaşıoğlu mətbəəsi (Bakı ş., M. Müşfiq küç. 2A. Tel. 502-46-91)

LAYİHƏ

**Pulsuz**

LAYİHƏ